# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

10 oktyabr 2024-cü il, cümə axşamı № 186 (6772) Qiyməti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# “Zəfər tariximiz - Hadrutun Ermənistan işğalından azad edilməsindən dörd il ötür”

**Prezident İlham Əliyev Hadrut qəsəbəsinin işğaldan azad olunmasının dördüncü ildönümü münasibətilə sosial şəbəkə hesablarında video paylaşıb**






# İstənilən sanksiyalara qəti şəkildə qarşıyıq!

Bax səh. 2

# Zəfərə 30 gün qalırdı...

Bax səh. 3

# TDT-nin Bişkek sammitindən gözləntilər



Bax səh. 4

# Cənubi Qafqazın təhlükəsizlik simvolu...

Bax səh. 6

## Şuşada mühüm iclas...

Ölkəmiz özünəməxsus qədim maddi və mənəvi irsə, mədəni dəyərlərə malikdir. Milli mədəniyyətimizin qorunması və inkişafı həm də milli dövlətçiliyin möhkəmləndirilməsi deməkdir. Azərbaycan xalqı öz dilinə, adət-ənənələrinə, mədəniyyətinə, ədəbiyyatına, tarixinə, eləcə də milli-mənəvi dəyərlərinə hər zaman bağlı olub. Məhz bu bağlılıq sayəsində dəyərlərimiz bu günədək özünəməxsusluğunu qoruyub saxlaya bilib.

Bunun nəticəsidir ki, əsrlər boyunca təşəkkül tapmış və yaşadılmış milli-mənəvi irsimizin əhəmiyyətli hissəsi bu gün də cəmiyyət həyatının...

Bax səh. 5

## “Yaşıl avtomobil” parkını genişləndirən vergi təşviqləri

Azərbaycanda az karbonlu nəqliyyat sektorunun inkişaf etdirilməsi tədbirlərinə uyğun olaraq ekoloji baxımdan daha təmiz avtomobillərin idxalına vergi-gömrük güzəştlərinin tətbiqi əsas prioritetlərdən biri kimi müəyyən olunub. Əsas məqsəd ölkəmizdə ənənəvi avtomobil parkını tədricən elektroavtomobillərlə əvəz etmək, elektrikomobillərin sayını sürətlə artırmaq...

Bax səh. 5

## Əmək bazarı rəqəmsallaşdırılır

Ölkədə həyata keçirilən təşviq əsaslı vergi siyasətinin əmək bazarına müsbət təsirləri davam edir. İş yerlərinin rəsmiləşdirilməsi, əmək haqqı fondunun “ağardılması” və şəffaflığın təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlərin nəticəsi olaraq, bağlanmış əmək müqavilələrinin sayı güzəştlərin tətbiq edilməyə başlanıldığı 2019-cu ilin əvvəli ilə müqayisədə 450.972 vahid artaraq 2024-cü il oktyabr ayının 1-nə 1.852.887 təşkil edib. Qeyri-neft sektorunun özəl...

Bax səh. 5

## Qərbin milli dövlətlərə təzyiq aləti - insan haqları

Ayrı-ayrı Avropa ölkələri və təsisatları demokratiya və insan haqlarını özlərinin təməl prinsipləri elan ediblər. Ancaq reallıq, Qərb dairələrindən gələn çağırışlar, Avropa Şurası Parlament Assambleyasının (AŞPA), “Amnesty İnternational”, “Freedon House”, “Human Rights Watch” kimi təşkilatların davranışları ortaya fərqli mənzərə qoyur. Görünən odur ki, indi...

Bax səh. 7

## Aİ-nin “missiyası” nəyə baxır?



Bax səh. 6



## Gürcüstan - Aİ münasibətlərində dərinləşən çatlar

Bax səh. 6

## O, əvvəlcə keşişə zəng edib...



Bax səh. 7

# Azərbaycan MDB-də əməkdaşlığa böyük önəm verir

Çoxvektorlu xarici siyasət kursuna malik olan Azərbaycan regional əməkdaşlığın dərinləşməsinə böyük önəm verir. Qısa müstəqillik tarixində respublikamız əksər region dövlətləri ilə ikitərəfli və çoxtərəfli platformalarda sıx əməkdaşlıq əlaqələri qurmağa nail olub. Bu kontekstdə Azərbaycanın keçmiş ittifaq respublikalarının iştirakı ilə yaradılan Müstəqil Dövlətlər Birliyində (MDB) təmsilçiliyi də diqqət çəkir. Bu günlərdə Moskvada Müstəqil Dövlətlər Birliyi Dövlət Başçıları Şurasının iclası keçirilib. İclasda çıxış edən Prezident İlham Əliyev Azərbaycan-MDB əməkdaşlığının uğurla inkişaf etməsindən məmnunluğunu bildirib və keçmiş müttəfiq respublikaların birgə keçdikləri yolda, o cümlədən də İkinci Dünya müharibəsində Qələbənin əldə olunmasında Azərbaycanın mühüm rol oynadığına diqqət çəkib.

## MDB-nin mədəniyyət paytaxtı - Laçın



Bu gün MDB-də Azərbaycana və onun Liderinə böyük ehtiram və hörmət bəslənildiyinin şahidi oluruq ki, bu da səbəbsiz deyil. Bir tərəfdən, ölkəmizin MDB-nin fəaliyyətinə verdiyi töhfələr üzv dövlətlər tərəfindən yüksək qiymətləndirilir və təqdir olunur. Digər tərəfdən isə respublikamız Ermənistan istisna olmaqla, qurumda təmsil olunan əksər dövlətlərlə yüksəksəviyyəli ikitərəfli münasibətlərə malikdir. Liderlər tez-tez qarşılıqlı səfərlər edərək fəal siyasi dialoq aparırlar və gündəliyin yeni-yeni istiqamətlərini müəyyənləşdirirlər.

MDB Humanitar Əməkdaşlıq Şurasının qərarına əsasən, Azərbaycanın Şərqi Zəngəzur bölgəsinin Laçın şəhərinin 2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı elan edilməsi qurumda Azərbaycana göstərilən hörmət və etimadın daha bir təsdiqidir. Laçın Azərbaycan xalqı üçün adi bir yaşayış məntəqəsi deyil. Uca dağlar qoynunda qərar tutan bu şəhərin əsrarəngiz gözəlliyə malik olması öz yerində. Ancaq Laçın bizim üçün həm də bir rəmzi məna daşıyır. Düşmənin işğal planında Ermənistanla Azərbaycanın müəyyən sayda erməni əhalinin yaşadığı keçmiş Dağlıq Qarabağ bölgəsi arasında coğrafi bağlantını təmin etmək əsas məqsədlərdən biri kimi nəzərdə tutulmuşdu. 1992-ci ilin mayında Laçının,1993-cü ilin aprelində Kəlbəcərin işğal altına düşməsi ilə düşmən öz istəyinə çatdı. Laçının və Kəlbəcərin itirilməsi ilə Ermənistanla keçmiş Dağlıq Qarabağ arasında birbaşa əlaqə təmin olundu. 44 günlük müharibənin nəticələrinə uyğun olaraq Laçın şəhəri respublikamıza döyüşsüz qaytarıldı. Ordumuz üçtərəfli Bəyanatın müddəalarına uyğun olaraq əvvəlcə Kəlbəcərdə, 2022-ci il avqustun 26-da isə Laçın şəhərində, eləcə də Zabux və Sus kəndlərində yerləşdi. 2022-ci il sentyabrın 21-də Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Laçın şəhərinin mərkəzində üçrəngli bayrağımızı ucaltmaqla bizə sonsuz qürur hissi yaşatdı.

İşğal altına düşən digər şəhərlərimiz kimi, Laçın da 30 il ərzində tamamilə dağıdılmışdı. Bu gün şəhər artıq bərpa olunub. “Burada yeni həyat başlayıb, keçmiş məcburi köçkünlər qayıdıblar. Laçının MDB-nin mədəniyyət paytaxtı elan edilməsi həm laçınlılar, həm də bütün Azərbaycan xalqı tərəfindən böyük minnətdarlıqla qarşılanıb”, - deyə Prezident İlham Əliyev bildirib.

Üçüncü MDB Oyunlarına ev sahibliyi hüququnun ölkəmizə verilməsi də qurum daxilində Azərbaycana inamın yüksək olmasının təsdiqidir. Belə genişmiqyaslı idman tədbirini ancaq Azərbaycan kimi güclü dövlət təşkil edib uğura keçirə bilər. Qeyd edək ki, III MDB Oyunları gələn il keçiriləcək. Gəncə şəhəri idman paytaxtına çevriləcək. Yarışlar, həmçinin Azərbaycanın 10-dan çox şəhərində keçiriləcək.

## Ümumi Qələbəyə verilən sanballı töhfələr




Bu gün MDB-də təmsil olunan müstəqil dövlətlər zamanında İkinci Dünya müharibəsinin ağrı-acılarını birgə yaşayıblar. Əgər həmin dövrdə keçmiş ittifaq respublikalarının birliyi olmasa idi, Qələbəni əldə etmək də mümkün olmayacaqdı. Təsadüfi deyildir ki, MDB dövlət başçıları İkinci Dünya müharibəsində Qələbənin 80 illiyi ilə bağlı müraciət qəbul ediblər.

İkinci Dünya müharibəsində döyüşlər respublikamızdan uzaqlarda getsə də, elə ilk günlərdən bütün Azərbaycan cəmiyyəti faşizmə qarşı mübarizəyə köklənib. Müharibə illərində Azərbaycan xalqı böyük qəhrəmanlıq və şücaət nümunələri göstərib. Qısa müddətdə respublikada 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi yaradılıb. Eləcə də müharibə illərində Azərbaycanda 130 növdən çox silah, sursat və texnika, o cümlədən məşhur “Katyuşalar”, “Yak-3” qırıcıları istehsal edilirdi. Dövlətimizin başçısı Taqanroq adı ilə tanınan 416-cı Azərbaycan atıcı diviziyasının döyüş yolundan bəhs edib. Bu diviziyanın döyüşçüləri 1942-ci ilin martında and içiblər və Şimali Qafqazdan başlayan döyüş yolunu Berlində başa çatdırıblar. 416-cı Azərbaycan atıcı diviziyası 1945-ci il aprelin 21-də birincilər sırasında Berlinin girəcəyinə daxil olub. Mayın 2-də diviziyanın döyüşçüləri polkovnik Rəşid Məcidovun komandanlığı altında Qələbə Bayrağını Brandenburq darvazası üzərinə sancıblar. Respublikamızın ümumi Qələbənin əldə olunmasında oynadığı mühüm rola diqqət çəkən Prezident İlham Əliyev vurğulayıb: “Azərbaycan ümumi Qələbəmizə sanballı töhfə verib. Həmin dövrdə 3 milyon 400 min əhalisi olan Azərbaycandan cəbhəyə 700 minə yaxın insan yollanıb. Döyüş meydanlarında 350 min nəfər həlak olub, 130 azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Müharibə illərində Azərbaycan neftçiləri cəbhəyə neft və neft məhsullarının 80 faizini, hərbi texnika üçün yağların 96 faizini tədarük edib”.

İkinci Dünya müharibəsi illərində arxa cəbhənin fədakarlığını da xüsusi qeyd edə bilərik. Həmin illərdə Bakıda 41 hərbi hospital fəaliyyət göstərirdi və 440 min yaralı həmin hospitallarda müalicə alıb. Faşist Almaniyasının planlarından biri məhz Bakını tutmaq idi. Təsadüfi deyil ki, Hitlerə təqdim edilən bayram tortunun üzərində “Xəzər dənizi” sözləri yazılmışdı. Əgər neft Bakısı işğala məruz qalsa idi, müharibənin yekunu tamam fərqli ola bilərdi. Prezident İlham Əliyevin bildirdiyi kimi, bizim 9 May ümumi Qələbəmiz MDB-yə üzv dövlətlərin gələcək əməkdaşlığının mühüm amilidir. “Azərbaycan bu əməkdaşlığa böyük əhəmiyyət verir və bundan sonra da qarşılıqlı fəaliyyətimizin möhkəmləndirilməsi işinə öz töhfəsini verəcək”, - deyə dövlətimizin başçısı vurğulayıb.

*Mübariz ABDULLAYEV*

# İstənilən sanksiyalara qəti şəkildə qarşıyıq!

## Vaşinqtonun “sanksiya siyasəti” öz marağına əsaslanır

## İlham Əliyev: Biz milli səviyyədə özümüzə qarşı, həm də təkcə bizə deyil, tətbiq olunan bütün sanksiyalara münasibətdə bu mövqeyi ifadə edirik

Son illərdə qlobal siyasi mühitdə yaşanan gərginliklər vahid “hədəfə” tuşlanıb. Belə ki, ABŞ-ın apardığı “vahid qütb olmaq uğrunda” mübarizə bütün müstəviləri aşmaqdadır. Xüsusi vurğulanmalıdır ki, Vaşinqton bu uğurda bütün addımları atır və atmağa da hazır görünür - hətta beynəlxalq hüququn tələblərinin pozulması, beynəlxalq konvensiyaların gözardı edilməsi, eyni zamanda, dünya dövlətlərinin bununla bağlı mövqeyinin nəzərə alınmaması faktları ortadadır. ABŞ özünün marağı olmadığı yerdə avtomatik olaraq sanksiyaları işə salır - başqa sözlə, Vaşinqtonun marağına xidmət etməyən siyasət birmənalı şəkildə “sanksiyalarla cəzalandırılır”. Və bu məsələdə heç bir dəyər və ya hüquq gözlənilmir.

### ABŞ-ın nankorluğu...

Qeyd edildiyi kimi, ABŞ və bütövlükdə, Qərb dünyası “sanksiyalaşdırma”nı əlində soyuq silaha çevirib. Vahid qütb olmaq üçün “mənim dediyimi təkrarlamayan məndən deyil” prinsipi ilə davranmaq XXI əsrin çağırışları və düşüncəsi ilə uzlaşmır - tam əksinə, ABŞ-ın hazırda apardığı siyasi xətt birmənalı olaraq özbaşınalığa və korporativ maraqlara söykənir.

30 ilə yaxın işğaldan əziyyət çəkmiş, təcavüzə uğramış, soyqırımı ilə üzləşmiş, işğal altında saxlanılan 20 faiz ərazisi tamamilə dağıdılmış Azərbaycan da bu və ya digər şəkildə haqsızlıqlara uyğrayıb. Uzun illər böyük güclərin tətbiq etdiyi ikili standartdan əziyyət çəkən ökəmiz isə bunun əksinə səbrlə və təmkinlə bütün mənalarda beynəlxalq ədalətin, hüququn yanında yer alıb - böyük güclər isə Ermənistanın bu qədər qanunsuz addımlarına qarşı loyal davranış nümayiş etdiriblər və hansısa haqlı sayılacaq sanksiyaya əl atmayıblar.

Bəli, hər zaman hüququn aliliyi prinsipini prioritet qəbul edən Azərbaycan Qərbin siyasi dəyənəyinə çevrilmiş “sanksiyalaşdırma siyasəti”nin bir parçası olmayıb. Tam əksinə, sanksiyalara qarşı bütün beynəlxalq ictimaiyyətin mövqe bildirməsinə üstünlük verib - çünki, biz hətta ortada olan ən kəskin problemlərin belə dialoq vasitəsilə həllinə inanırıq və bunu təbliğ edirik. Bu mənada, Azərbaycan hər zaman sanksiyaya qarşı mövqe sərgiləyib. Prezident İlham Əliyev oktyabrın 8-də Moskvada “Rossiya-1” televiziya kanalına müsahibəsində bildirib ki, sanksiyalar siyasətinin ümumiyyətlə, mövcud olmağa haqqı yoxdur, xüsusilə də bu sanksiyalar qeyri-qanuni olduqda və tamamilə əsassız və selektiv şəkildə tətbiq edildikdə: “Ona görə də biz istənilən sanksiyalara qəti şəkildə qarşıyıq və hesab edirəm ki, beynəlxalq ictimaiyyət öz mövqeyini vahid qaydada bildirməlidir. Biz milli səviyyədə özümüzə qarşı, həm də təkcə bizə deyil, tətbiq olunan bütün sanksiyalara münasibətdə bu mövqeyi ifadə edirik”.

Konkret Azərbaycana gəldikdə isə vurğulandığı kimi, ölkəmiz daim haqsızlıqlara uğrayıb. Məsələn, 1992-ci ildə ABŞ konqresi tərəfindən qəbul edilən “Azadlığa Dəstək Aktı”nın 907-ci maddəsinə düzəliş ABŞ-ın Azərbaycana birbaşa dövlət yardımını qadağan edən bir sanksiya idi. Erməni lobbisinin təşəbbüsü ilə qəbul edilən bu qadağa Azərbaycanı iqtisadi və siyasi sabitliyi asanlaşdırmaq üçün ABŞ hökumətindən birbaşa yardım almayan yeganə postsovet dövlətinə çevirdi. Qadağanın tətbiqinin “səbəbi” isə birmənalı şəkildə haqsız və ədalətsiz formada əsaslandırılmışdı. Belə ki, ermənipərəst konqresmenlər tərəfindən hazırlanan bu qadağa layihəsi guya Azərbaycanın Ermənistana və “Dağlıq Qarabağa” qarşı blokadasından irəli gəlirdi. Halbuki, həmin dövrdə və ondan sonra 30 ilə yaxın müddətdə Ermənistan Azərbaycan torpaqlarını işğal etmiş, Qarabağda separatizm yuvası yaratmış, Naxçıvanı bu gün də davam edən blokadaya salmışdı. Prezident İlham Əliyev müsahibəsində bildirib ki, bizə sanksiyalar 1992-ci ildə, Azərbaycan ərazilərinin Ermənistanın işğalı altında olduğu bir vaxtda ölkəmizin “Ermənistanı blokadada saxlaması” barədə qondarma ittihamla tətbiq edilmişdi.

Amma bu sanksiyalar 2001-ci ildə dayandırıldı - həmin ilin 11 sentyabr hadisələrindən sonra Azərbaycanın beynəlxalq terrorizmlə mübarizədə dəstəyini təmin etmək məqsədilə ABŞ Konqresi prezidentə düzəlişin hüquqi qüvvəsini dayandırmaq səlahiyyəti verdi. Dövlət başçısı “Rossiya-1” televiziya kanalına müsahibəsində bildirib ki, bu sanksiyalar 2001-ci ildə, ABŞ-ın öz yüklərini hava, quru və dəniz yolu ilə Azərbaycan ərazisindən Əfqanıstana tranzit daşımalı olduğu vaxt aradan qaldırılmışdı: “Partiya mənsubiyyətindən asılı olmayaraq, Birləşmiş Ştatların Prezidenti ABŞ Əfqanıstandan qaçana qədər hər il bu sanksiyaları öz qərarı ilə ləğv edirdi. Bundan sonra bizə qarşı həmin sanksiyalar yenidən tətbiq olundu. Mən onları nankorluqda ittiham edəndə, hesab edirəm ki, bu, həmin kontekstdə istifadə olunacaq ən sərt söz deyil”.

### ABŞ Əfqanıstandan qaçana qədər...




Həmin dövrdə Azərbaycan beynəlxalq terrorizmə qarşı mübarizədə səmimi şəkildə ön sırada dayanırdı. Azərbaycan həmin dövrdə quru, hava və su yolu ilə yüklərin daşınmasında fəal rol oynadığı kimi, həm də bu mübarizədə təmsil olundu - “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Əfqanıstanda Təhlükəsizliyin Dəstəklənməsi üzrə Beynəlxalq Qüvvələrin Türk taburunun tərkibində fəaliyyət göstərəcək Azərbaycan tağımına dair Saziş”ə əsasən Azərbaycan Respublikası Silahlı Qüvvələri iki taqımla Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin taburu tərkibində və NATO strukturlarının ümumi komandanlığı altında Əfqanıstanda yerləşdirildi, müvafiq əməliyyatlarda iştirak etdi. Azərbaycan Silahlı Qüvvələrinin 22 nəfərlik sülhməramlı tağımı 2002-ci il noyabr ayının 20-dən Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri (İSAF) tərkibində fəaliyyət göstərməyə başlayıb. 2008-ci il yanvarın 15-dən Azərbaycanın Əfqanıstandakı sülhməramlı kontingentinin sayı artırılaraq bölük səviyyəsinə çatdırılıb. 2008-ci il oktyabrın 2-dən Azərbaycan Respublikasının Milli Məclisi Əfqanıstandakı sülhməramlı kontingentin 2 dəfə artırılması barədə qərar qəbul edib. Müvafiq olaraq, 2009-cu il fevralın 19-dan etibarən Azərbaycan Respublikası SQ-nin 90 nəfər sülhməramlı kontingenti Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri (İSAF) əməliyyatlarında Türkiyə taboru tərkibində fəaliyyət göstərib. Paralel olaraq 2010-cu il oktyabrın 5-dən Azərbaycan NATO-nun Əfqanıstanda keçirdiyi Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri (İSAF) üzrə əməliyyatlarında Azərbaycan Respublikası Sülhməramlı qüvvələrinin töhfəsinin artırılması məqsədilə 2 hərbi həkim və 2 mühəndis-istehkam ixtisası üzrə zabit göndərilib. 2015-ci ilin yanvar ayından isə NATO-nun Əfqanıstanda keçirdiyi yeni “Qətiyyətli Dəstək” adlı qeyri-döyüş missiyasında Silahlı Qüvvələrin 94 nəfərlik kontingenti 6 aylıq rotasiya planına uyğun olaraq xidmət edib.

2020-ci ilin fevralından isə ABŞ qüvvələri Əfqanıstanı tərk etdi. Beləliklə, bu sirrli və tələm-tələsik çıxışın ardından ABŞ yenidən öz köhnə ampluasına geri döndü. Yenə də ermənipərəst maraq əsas götürüldü və Azərbaycana qarşı bu haqsız davranış davam etdirildi. Bu isə birmənalı şəkildə hüquqa barmaqarası baxış deməkdir - Vaşinqtonun davranışı özünü qlobal güc mərkəzi hesab edən bir dövlətin davranışından uzaqdır. Ən azından bəyan etdiyi demokratik dəyərlərə belə qiymət verməyən Ağ ev özünün əsl simasını növbəti dəfə dünyaya göstərmiş oldu...

*P.İSMAYILOV*

# Ölkəmiz regional sülh gündəliyini dəstəkləyir

## Prezident İlham Əliyev ABŞ Prezidentinin Beynəlxalq İqlim Siyasəti üzrə baş müşavirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da ABŞ Prezidentinin Beynəlxalq İqlim Siyasəti üzrə baş müşaviri Con Podestanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, qəbula görə dövlətimizin başçısına minnətdarlığını bildirən Con Podesta COP29-la bağlı azərbaycanlı həmkarlarla çox səmərəli və məhsuldar söhbətlərin aparıldığını dedi. Qonaq Azərbaycan Prezidenti ilə COP29 barədə fikir mübadiləsi aparmaqdan məmnunluq hissi keçirdiyini vurğuladı. Con Podesta dedi ki, COP sədri qismində ölkəmizin hazırlıq üçün vaxtının az olmasına baxmayaraq, Azərbaycan heyəti tərəfindən yüksək peşəkarlıq nümayiş etdirilib. O, qarşıdan gələn COP-da İkiillik Şəffaflıq hesabatları və digər məsələlər, xüsusilə də yeni kəmiyyət maliyyə hədəfi üzrə mühüm qərarların qəbul olunmasının vacibliyini bildirdi.

Prezident İlham Əliyev Con Podestanın Azərbaycan tərəfi ilə yaxşı əlaqələr yaratmasını məmnunluqla qeyd etdi. COP29-un əhəmiyyətinə toxunan dövlətimizin başçısı bu tədbirin yaxşı nəticələr verəcəyinə ümidvarlığını bildirdi. Prezident İlham Əliyev bu konfransın keçirilməsi ilə bağlı hazırlıq işlərinə bir ildən də az müddət olmasına baxmayaraq, onun yüksək səviyyədə təşkil olunması və iştirakçı ölkələr arasında konsensusun əldə edilməsi istiqamətində Azərbaycanın böyük səylər göstərdiyini dedi.



Azərbaycan tərəfinin sədr olaraq ölkələr arasında körpülərin qurulmasına çalışdığını vurğulayan dövlətimizin başçısı ölkəmizin bir sıra təsisatlarda üzvlüyünün və müxtəlif dövlətlərlə yaxın əlaqələrinin olmasının COP29-da konsensusun qurulması prosesinə töhfə verəcəyinə ümidvarlığını ifadə etdi.

Söhbət zamanı Azərbaycan və ABŞ COP nümayəndə heyətləri arasında yaxşı əməkdaşlığın olduğu vurğulandı. Bakıda keçirilən COP-öncəsi tədbirin vacibliyi qeyd olundu və bu çərçivədə aparılan müzakirələrin qarşıdan gələn COP tədbirinin gündəliyinin müəyyən olunması üçün önəmi bildirildi.

Con Podesta ABŞ-ın regional sülh gündəliyini dəstəklədiyini diqqətə çatdırdı.

44 günlük Vətən müharibəsindən sonra Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin və onun əsasını təşkil edən beş fundamental prinsipin təşəbbüskarının məhz Azərbaycan tərəfi olduğunu deyən Prezident İlham Əliyev qeyd etdi ki, ölkəmiz regional sülh gündəliyini dəstəkləyir.

Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli gündəliyə aid məsələlər də müzakirə olundu.

# Azərbaycan dünyanın qlobal iştirakçıları arasında körpüdür

## BMT Baş katibinin birinci müavini Prezidentin qəbulunda

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da BMT Baş katibinin birinci müavini Amina Mohammedi qəbul edib.

AZƏRTAC xəbər verir ki, Amina Mohammed BMT Baş katibinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Antonio Quterreşə çatdırmağı xahiş etdi. Dövlətimizin başçısı COP çərçivəsində BMT Baş katibini Azərbaycanda məmnuniyyətlə gözlədiyini dedi.



Qonaq ölkəmizdə COP29-un təşkil olunması işində Azərbaycan Prezidentinin rəhbərliyini yüksək qiymətləndirdi. O, BMT-nin aidiyyəti strukturları ilə Azərbaycan arasında COP gündəliyinin irəli aparılması üzrə əməkdaşlıqdan məmnunluğunu ifadə etdi, Azərbaycan nümayəndə heyəti ilə yaxşı əməkdaşlığın və əlaqələrin olduğunu vurğuladı.

Amina Mohammed Gələcəyin Paktı sənədinə Azərbaycanın da qoşulmasını və onu dəstəkləməsini yüksək qiymətləndirdi. O, iqlim dəyişikliyi ilə Dayanıqlı İnkişaf Məqsədləri arasında birbaşa əlaqənin olduğunu bildirərək, Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində əldə etdiyi nailiyyətləri vurğuladı.

BMT Baş katibinin birinci müavini Azərbaycanın sədrlik etdiyi COP-da əsas mövzunun maliyyə məsələsi olacağına toxunaraq, yeni kəmiyyət maliyyə hədəfi ilə əlaqədar beynəlxalq ictimaiyyət tərəfindən qarşıya yeni məqsədlərin qoyulacağına və onun müəyyənləşdiriləcəyinə ümidvarlığını ifadə etdi.

Dövlətimizin başçısı COP-a hazırlıq prosesində BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası (UNFCCC) və Təşkilatın digər strukturları ilə əməkdaşlıqdan məmnunluğunu bildirdi.

Azərbaycan dövlətinin uzun illər beynəlxalq aləmdə fəal rolunu, həmçinin dünyanın qlobal iştirakçıları arasında bir körpü olduğunu məmnunluqla vurğulayan Prezident İlham Əliyev COP29-un uğurla keçəcəyinə ümidvarlığını ifadə etdi. Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa İttifaqı ilə fəal əməkdaşlıq həyata keçirdiyini, bir sıra Avropa ölkələri ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalandığını vurğulayaraq bildirdi ki, bütün bunlar Azərbaycanda COP29-un uğurla keçiriləcəyinə yaxşı əsas yaradır. Prezident İlham Əliyev ölkəmizin COP29-da konsensusun əldə olunması üçün səylər göstərdiyini bildirdi. Dövlətimizin başçısı "troyka" formatına toxunaraq, Azərbaycanın COP28-ə ev sahibliyi etmiş Birləşmiş Ərəb Əmirlikləri və COP30-a ev sahibliyi edəcək Braziliya ilə fəal işlər apardığını dedi.

Görüşdə COP29-un təşkili və ölkəmizin bu mötəbər tədbirə sədrliyi ilə əlaqədar fikir mübadiləsi aparıldı. Bakıda COP-öncəsi keçirilən tədbirin önəmi qeyd edilərək, burada aparılan müzakirələrin COP29-un gündəliyinin müəyyən olunması baxımından vacibliyi vurğulandı.

# COP29-un təşkili üçün yaxşı əsas

## Prezident İlham Əliyev Böyük Britaniyanın beynəlxalq enerji və iqlim üzrə nazirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının beynəlxalq enerji və iqlim üzrə naziri Keri Makkartini qəbul edib.

AZƏRTAC xəbər verir ki, COP29-un əhəmiyyətinə toxunan Prezident İlham Əliyev onun keçirilməsi ilə bağlı Azərbaycanın bir ildən də az vaxtı olmasına baxmayaraq, ölkəmizdə bu tədbirlə əlaqədar yüksək səviyyədə hazırlıq işlərinin getdiyini bildirdi.



Azərbaycanın ölkələr və beynəlxalq aləmin qlobal iştirakçıları arasında körpü qurulması işində fəal rol oynadığını deyən dövlətimizin başçısı vurğuladı ki, ölkəmiz uzun illərdir beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq həyata keçirir və Qoşulmama Hərəkatına uğurla sədrlik etmişdir. Bütün bunlar da COP29-un təşkili üçün yaxşı əsas yaradır.

Söhbət zamanı Azərbaycanın və Böyük Britaniyanın COP komandaları arasında əməkdaşlıqdan məmnunluq ifadə olundu, Britaniya hökumətinin gündəliyində iqlim dəyişməsinin prioritet məsələ olduğu bildirildi.

Görüşdə bərpaolunan enerji sahəsində ölkələrimiz arasında əməkdaşlığın perspektivləri, həmçinin Azərbaycanın COP-un gündəliyində duran prioritetləri və təşəbbüsləri müzakirə olundu.

Dövlətimizin başçısı Azərbaycanın bərpaolunan enerji istiqamətində həyata keçirdiyi tədbirlərə toxundu. Ölkəmizin bərpaolunan enerji potensialının artması, Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında Qara dənizin dibi ilə çəkiləcək kabel xətti üzrə dördtərəfli layihə, həmçinin Mərkəzi Asiya ilə Azərbaycanı birləşdirən bərpaolunan enerji layihəsi barədə fikir mübadiləsi aparıldı.

Söhbət zamanı COP29-un gündəliyinin müəyyən edilməsi baxımından Bakıda keçirilən COP-öncəsi tədbirin əhəmiyyətinə toxunuldu.

# Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqovla İslam Əməkdaşlıq Təşkilatının (İƏT) İslam Ölkələri üçün Statistik, İqtisadi və Sosial Tədqiqat və Təlim Mərkəzinin (SESRIC) Baş direktoru Zehra Zümrüt Selçuk arasında görüş keçirilib

Oktyabrın 9-da Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov İslam Əməkdaşlıq Təşkilatının (İƏT) İslam Ölkələri üçün Statistik, İqtisadi və Sosial Tədqiqat və Təlim Mərkəzinin (SESRIC) Baş direktoru xanım Zehra Zümrüt Selçuk ilə görüşüb.

Görüşdə son illər ərzində Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə SESRİC arasındakı əməkdaşlıqdan məmnunluq ifadə olunaraq, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 aprel tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə İslam Əməkdaşlıq Təşkilatının İslam Ölkələri üçün Statistik, İqtisadi və Sosial Tədqiqat və Təlim Mərkəzi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" ilə iki qurum arasında əməkdaşlığın yeni istiqamətlərinin müəyyən olunduğu qeyd olunub. Vurğulanıb ki, Memorandumun icrası Azərbaycan Respublikasının rəsmi statistika sisteminin daha da inkişaf etdirilməsi və təkmilləşdirilməsinə, statistik məlumatların mübadiləsi, təlim səfərləri və seminarlar vasitəsilə statistik potensialın artırılmasına, əməkdaşlığın gücləndirilməsinə mühüm töhfə verməkdədir.

SESRIC-in Baş direktoru xanım Zehra Zümrüt Selçuk səmimi görüşə görə Tahir Budaqova öz təşəkkürünü bildirərək, Dövlət Statistika Komitəsi ilə əməkdaşlığın bütün istiqamətləri üzrə müsbət nəticələrin əldə olunduğunu, SESRIC tərəfindən təşkil olunan tədbirlərdə Komitənin aktiv fəaliyyətindən məmnunluğunu ifadə edib, sözügedən Memorandum çərçivəsində bundan sonra da müvafiq zəruri tədbirlərin görüləcəyini diqqətə çatdırıb.

Daha sonra görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



# Zəfərə 30 gün qalırdı...

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu sonradan "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.

**Vətən müharibəsinin**
**14-cü günü**
**10.10.2020**

• Azərbaycan Ordusunun davam etdirdiyi hücum əməliyyatı nəticəsində düşmənin xeyli sayda canlı qüvvəsi, 13 tankı, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 6 ədəd D-20 və D-30 topu, 3 ədəd 2S3 "Akasiya" özüyeriyən artilleriya qurğusu, 2 ədəd M55 "Zastava" zenit qurğusu, 2 radiolokasiya stansiyaları və radioelektron mübarizə vasitələri dəqiq atəşlə məhv edilib. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

• Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın RBK televiziya kanalına müsahibə verib.



• Müdafiə Nazirliyi: Humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri günorta saatlarında Tuğ kəndi istiqamətindən Hadrut qəsəbəsi, Aragül və Banazur istiqamətlərindən Cəbrayıl istiqamətində hücuma cəhd göstərib. Bölmələrimizin qabaqlayıcı tədbirləri nəticəsində xeyli sayda canlı qüvvə və döyüş texnikası itirən düşmən geri çəkilməyə məcbur edilib. Müdafiəni düzgün təşkil edən bölmələrimiz düşmənin irəliləməsinin qarşısını alıb, onu tələyə salaraq darmadağın edib. Düşmənin 38 nəfər canlı qüvvəsi, 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 7 ədəd topu və sursatla dolu 2 yük maşını sıradan çıxarılıb.

• Azərbaycan Ordusu Qubadlıda düşmənin "S-300" idarəetmə sistemini məhv edib.

• Ermənistan ordusu cəbhənin Ağdərə-Tərtər və Füzuli-Cəbrayıl istiqamətlərində hücuma keçməyə cəhd göstərib. Eyni zamanda, bir sıra yaşayış məntəqələrimiz Ermənistan silahlı qüvvələri tərəfindən artilleriya atəşinə tutulub. Azərbaycan Ordusunun bölmələri düşmənin bütün hücum cəhdlərinin qarşısını qətiyyətlə alıb.

• Atəşkəs rejimini pozan düşmənin zirehli və digər hərbi texnikası, tank və artilleriya bölmələri, atəş nöqtələrinə çıxardığı ağır artilleriyası, döyüşə hazır vəziyyətə gətirilən zenit-raket kompleksləri Azərbaycan Ordusu bölmələrinin dəqiq atəşi ilə məhv edilib.

• Ermənistan ərazisindən Mingəçevir istiqamətində atılan 9K72 "Elbrus" əməliyyat-taktiki raket kompleksinin ballistik hədəfi Azərbaycan Hava Hücumundan müdafiə sistemləri tərəfindən zərərsizləşdirilib.

• Düşmənin havadan müdafiə sistemini yönəldən, Xocalıda yerləşən ən bahalı 19J6 (ST-68U) radiolokasiya stansiyası (RLS) məhv edilib.

• Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən intensiv atəşə tutması nəticəsində 10 oktyabr saat 12:00-a olan məlumata görə, mülki şəxslərdən 31 nəfər həlak olub, 171 nəfər isə xəsarət alıb, 1137 ev, 45 çoxmənzilli yaşayış binası və 146 mülki obyekt yararsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.

# "Prezident İlham Əliyevin innovativ dövlət idarəçiliyi: COP29-a aparan yollar"

Oktyabrın 9-da Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurası və YAP Yasamal rayon təşkilatının birgə təşkilatçılığı ilə "Prezident İlham Əliyevin innovativ dövlət idarəçiliyi: COP29-a aparan yollar" mövzusunda tədbir keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin YAP Yasamal rayon təşkilatının qərargahında yerləşən büstü önünə gül dəstələri düzülüb.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş qəhrəman vətən övladlarının əziz xatirəsi ehtiramla yad edilib. Sonra Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev bildirib ki, Azərbaycan dünyada beynəlxalq tədbirlərin uğurla həyata keçirildiyi bir məkana çevrilib: "COP sessiyaları iqlim dəyişikliyi ilə mübarizədə çox vacib və dünyanın ən əhəmiyyətli tədbirlərindən biridir. Azərbaycanın bu konfransa Şərqi Avropa qrupu ölkələri arasından yekdil qərarla ev sahibi seçilməsi ölkəmizə yüksək etimadın göstəricisidir. Hazırlıq işlərinin miqyası göstərir ki, Azərbaycan COP29-un təşkilini də ən yüksək səviyyədə həyata keçirəcək".

Çıxış edən YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə vurğulayıb ki, COP29-un ölkəmizdə keçirilməsi, ilk növbədə Prezident İlham Əliyevin dünyada yüksək nüfuzunun və həyata keçirdiyi uğurlu siyasətin parlaq nümunəsidir: "Dövlətimizin başçısı qazanılan bu uğurla Azərbaycanın qüdrətini bir daha dünyaya göstərdi və beynəlxalq aləmdə böyük etimad qazandığını nümayiş etdirdi. Ölkəmiz qlobal problemlərdən biri olan iqlim dəyişmələrinə qarşı səyləri səfərbər etmək və bu mübarizəyə töhfə verməklə dünyanın diqqət mərkəzində olacaq".

YAP Veteranlar Şurasının sədrinin fikrincə, tədbirin Bakıda keçirilməsi beynəlxalq miqyasda Azərbaycanla bağlı mötəbər rəylərin daha da möhkəmlənməsində təsirli rola malikdir və ölkə reallıqlarının daha çevik və effektiv şəkildə beynəlxalq aləmdə öz əksini tapması üçün çox mühüm vasitə hesab edilir: "COP29-da iştirak edəcək dünya liderləri Azərbaycanın dinamik inkişafına əyani surətdə şahid olacaqlar ki, bu amil dövlətimizin beynəlxalq nüfuzunun daha da güclənməsini özündə ehtiva edəcək. Ərazi bütövlüyünü və suverenliyini tam təmin etmiş Azərbaycan yaratdığı yeni reallıqları dünyaya təqdim edəcək. Təbii ki, bütün bunlar beynəlxalq müstəvidə ölkəmizə əhəmiyyətli dividentlər qazandıracaq".



YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, biologiya elmləri doktoru, professor Urxan Ələkbərov mövzu ilə əlaqədar məruzə ilə çıxış edib. O bildirib ki, iqlim dəyişikliyi artıq bütün dövlətlər qarşısında qlobal çağırış olaraq dayanır: "İqlim dəyişikliyi məsələsində beynəlxalq ictimaiyyət, dünya ölkələrinin üzərinə böyük iş və məsuliyyət düşür. Şübhə yoxdur ki, etibarlı tərəfdaş olan Azərbaycan həmişə olduğu kimi, bu dəfə də öz üzərinə düşən missiyanı yüksək səviyyədə yerinə yetirəcək, iqlim dəyişikliyi ilə mübarizədə yeni Azərbaycan modelini yaradacaq".

U.Ələkbərov bu istiqamətdə işlərin Azərbaycanda 2004-cü ildən başlandığını vurğulayıb. Belə ki, həmin ildə Prezident İlham Əliyev tərəfindən ölkəmizdə alternativ enerji ilə bağlı Milli Proqram təsdiqlənib. O vaxtdan başlanan işlər Azərbaycanın hazırkı inkişaf səviyyəsinə çatmasında da özünü ifadə edir.

Məruzəçi Azərbaycanın innovativ idarəçilik baxımından dünya ölkələri arasında ön sıralarda olduğunu deyib və bu yöndə faktların müvafiq beynəlxalq təşkilatların hesabatlarında əksini tapdığını diqqətə çatdırıb. "Ölkəmizin ev sahibliyi edəcəyi COP29 iqlim dəyişikliyi ilə bağlı yeni yanaşmaların yaranmasına və müxtəlif maraqlı tərəflər arasında əməkdaşlığa imkan verəcək. Azərbaycan kimi digər bütün ölkələr də bu problemin həllinə töhfə verməlidirlər", - deyə U.Ələkbərov vurğulayıb.

AMEA-nın müxbir üzvü, biologiya elmləri doktoru, professor Novruz Quliyev diqqətə çatdırıb ki, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilib. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində mühüm işlər aparılır. N.Quliyev COP29 ərəfəsində bəzi ölkələrin Azərbaycana qarşı qərəzli kampaniyalar apardığını və bu kampaniyaların qəbuledilməz olduğunu söyləyib.

"Nəzərə alaq ki, Azərbaycan beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə daim öz töhfələrini verir. Bu baxımdan, ölkəmiz qlobal problemlərdən biri olan iqlim dəyişmələrinə qarşı səyləri səfərbər etmək və bu mübarizəyə töhfə verməklə dünyanın diqqət mərkəzindədir", - deyə o, vurğulayıb.

Çıxış edən Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin Nəzarət və qiymətləndirmə şöbəsinin müdiri Təhmin Şəkibəyov deyib ki, iqlim dəyişikliklərinin baş verməsinin müxtəlif səbəbləri var. Onun sözlərinə görə, istixana qazlarının normadan artıq havaya buraxılması iqlimə mənfi təsir edən əsas amillərdəndir. Eyni zamanda, iqlim dəyişiklikləri kənd təsərrüfatında məhsuldarlığa da ciddi təsir edir. Son yüz illə müqayisədə meşə yanğınlarının bir neçə dəfə artması da bu problemlər sırasına daxildir.

"Azərbaycanda dövlət rəhbərliyinin ekologiya ilə bağlı məsələləri daim diqqət mərkəzində saxlaması ətraf mühitin qorunması istiqamətində aparılan işlərə böyük təkan verib, bu sahədə iri layihələr uğurla həyata keçirilib. Ötən dövr ərzində bu istiqamətdə Prezident İlham Əliyev tərəfindən çoxsaylı dövlət proqramları təsdiq edilib, müvafiq Fərman və sərəncamlar imzalanıb. Dövlət başçısı tərəfindən azad edilmiş Qarabağ və Şərqi Zəngəzur bölgələri, eləcə də Naxçıvan bölgəsi Azərbaycanda "yaşıl enerji" zonaları elan edilib", - deyə T.Şəkibəyov qeyd edib.

Sonra tədbir interaktiv formada davam edib, iştirakçıların sualları cavablandırıb.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

# TDT-nin Bişkek sammitindən gözləntilər

Noyabrın 6-da Qırğızıstanın Bişkek şəhərində Türk Dövlətləri Təşkilatı (TDT) liderlərinin 11-ci Zirvə görüşü keçiriləcək. Sammitə Qırğızıstan dövləti ev sahibliyi edəcək. Bununla bağlı Qırğızıstan Xarici İşlər Nazirliyinin (XİN) məlumatında bildirilib ki, Türk Dövlətləri Təşkilatının Bişkek sammiti türk ölkələri arasında inteqrasiya proseslərinin daha da inkişafına xidmət edəcək.

"Bu il Qırğızıstan Türk Dövlətləri Təşkilatına sədrliyi qəbul edəcək. Əminik ki, 6 noyabr 2024-cü ildə keçiriləcək TDT-nin Bişkek sammiti ölkələrimiz arasında inteqrasiya proseslərinin daha da inkişafına xidmət edəcək. Qırğızıstanın türkdilli dövlətlərlə münasibətləri qarşılıqlı etimad əsasında və xalqlarımızın maraqları naminə inkişaf edəcək", - deyə məlumatda vurğulanıb. XİN qeyd edib ki, ötən illər ərzində TDT formalaşma mərhələsindən keçərək tam hüquqlu beynəlxalq təşkilata çevrilib. O, tarixi, mədəni və dini ümumiliyə görə yüksək potensiala malik mühüm regional birlik olub. "Qırğızıstan XİN Türk Dövlətləri Təşkilatının (TDT) üzv və müşahidəçi dövlətlərini əlamətdar tarix - TDT-nin yaradılması haqqında Naxçıvan sazişinin imzalanmasının 15 illiyi, həmçinin Türk Dövlətlərinin Əməkdaşlıq Günü münasibətilə təbrik edir", - məlumatda qeyd edilib.

## Siyasi əməkdaşlığın gücləndirilməsi, regional təhlükəsizliyə təhdidlərə qarşı mübarizə...

## Növbəti görüş...

Vurğulandığı kimi, bu il TDT-nin davamçısı olduğu Türk Dövlətləri Əməkdaşlıq Şurasının yaranmasının, Naxçıvan sazişinin imzalanmasının 15-ci ildönümüdür. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (Türk Şurası) 3 oktyabr 2009-cu ildə Naxçıvan şəhərində imzalanan Naxçıvan müqaviləsi ilə Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan arasında qurulmuş olan beynəlxalq təşkilatdır. Özbəkistan 30 aprel 2018-ci ildə ovaxtkı TDƏŞ-ə qatılma niyyətinin olduğunu açıqlamış və 14 sentyabr 2019-cu ildə də Türk Şurasına üzv olmuşdu. 2021-ci ilin noyabrın 12-də Türkiyənin İstanbul şəhərində baş tutan Sammitdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adının Türk Dövlətləri Təşkilatı olaraq dəyişdirilməsinə qərar verilib. Şimali Kipr Türk Cümhuriyyəti, Macarıstan və Türkmənistan isə qurumda müşahidəçi dövlət statusunda çıxış edirlər. Üzv ölkələrin dövlət rəhbərləri ildə bir dəfə rəsmi, bir dəfə də qeyri-rəsmi olaraq müxtəlif şəhərlərdə toplanır və TDT-nin çağırışları, regional predmetlər, real siyasi vəziyyət müzakirə olunur. 2009-cu ildən bəri Zirvə görüşlərinin dördü Azərbaycanda (bu ilki qeyri-rəsmi Şuşa zirvəsi də daxil olmaqla), dördü Türkiyədə, üçü Qazaxıstanda, ikisi Qırğızıstanda, biri isə Özbəkistanda keçirilib.




## Sammitöncəsi Ankara məsləhətləşmələri...

Dövlət başçılarının Zirvə görüşündən öncə oktyabrın 4-də Türkiyənin paytaxtı Ankara şəhərində Türk Dövlətləri Təşkilatına üzv ölkələrin xarici işlər nazirlərinin müavinləri səviyyəsində çoxtərəfli siyasi məsləhətləşmələr keçirilib. Məsləhətləşmələr zamanı TDT dövlət başçılarının noyabrın 6-da Bişkekdə keçiriləcək 11-ci sammitinə hazırlıq məsələləri, o cümlədən regional və beynəlxalq gündəlikdəki cari məsələlər müzakirə edilib. İştirakçılar, həmçinin siyasi əməkdaşlığın gücləndirilməsini və regional təhlükəsizliyə təhdidlərə qarşı mübarizəni nəzərdən keçiriblər. Görüşün yekununda türk xalqlarının ortaq tarixi, dili, mədəniyyəti və adət-ənənələrinə əsaslanan çoxtərəfli tərəfdaşlığı inkişaf etdirməyə hazır olduqları təsdiqlənib. Azərbaycanı tədbirdə xarici işlər nazirinin müavini Elnur Məmmədov təmsil edib.

## TDT-nin üstünlükləri: strateji və təhlükəsiz ticari aorta...

Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan, Azərbaycan, Türkiyənin və müşahidəçi qismində Türkmənistan, Macarıstan və ŞKTC-nin timsalında  TDT inkişafının yeni mərhələsini formalaşdırıb. İndiyə qədər keçirilən sammitlər fərqli məsələlərin müzakirəsini özündə ehtiva edib - burada mədəni inteqrasiya, gömrük məsələlərinin müzakirəsi, ortaq dil məsələsinin həlli, iqtisadi tərədaşlığın gücləndirilməsi, paralel olaraq təhsil məsələsində inteqrasiyanın təşkili və bu kimi yeni dövrün ticari-iqtisadi, siyasi-humanitar mahiyyətini özündə əks etdirən zəruri istiqamətlər müzakirə predmeti olub. Son Ankara görüşündən bəlli olduğu kimi, müzakirələrdə siyasi əməkdaşlığın gücləndirilməsi və regional təhlükəsizliyə təhdidlərə qarşı mübarizə kimi olduqca vacib məsələlər yer alır. XI sammitin bu kimi aktual məsələlərə toxunması səbəbsiz deyil - məlum olduğu kimi, Azərbaycanın son 4 ildə regionda yaratdığı siyasi-hərbi reallıqlar demək olar ki, bütövlükdə, TDT-ni əhatə edən Mərkəzi Asiya - Cənubi Qafqaz - Kiçik Asiya geocoğrafiyasında yeni ştrixlər formalaşdırb. Buraya təhlükəsizlik amilindən tutmuş yeni ticari münasibətlər sisteminin yaranmasına qədər həyati predmetlər daxildir. Azərbaycanın yaratdığı təhlükəsiz yol isə müasir dövrün yeni ticari aortası hesab edilir. Bu amil, Türk dünyasının iqtisadi potensialını bir neçə dəfə artırmaq gücünə malikdir. Son 4 ildə özünün yeni inkişaf mərhələsinə qədəm qoyan Türk birliyi qısa zamanda özünü təsdiq edib - yeni enerji siyasəti ilə qlobal enerji təhlükəsizliyi məsələsində əhəmiyyətli yer tutmaqla yanaşı, TDT həm də geoçoğrafi üstünlüklərini iqtisadi dividendə çevirə bilib. Təbii ki, burada Azərbaycanın təəbbüsü ilə reallaşan tranzit nəqliyyat kommunikasiya xətləri xüsusi vurğulanmalıdır.

Eyni zamanda, TDT-nin yeni mərhələdə təhlükəsizik arxitekturasının möhkəmlənməsi yönündəki fəaliyyətinə nəzər saldıqda sabit və təhlükəsiz daşınma xəttinin müəyyənləşdirilməsini oratya qoymaq olar ki, burada da Azərbaycanın qəti qələbəsi ilə bitən Vətən müharibəsinin və lokal antiterror tədbirləri nəticələri xüsusi əhəmiyyət daşıyır. Təhlükəsizlik amili il bağlı bu kimi vacib kontentlər isə yeni dövr üçün Türk dünyasını bütün qlobal cəmiyyətlər üçün diqqət mərkəzinə salır.

## Müdafiə sahəsində əməkdaşlığın istinad mənbəyi - Şuşa Bəyannaməsi

Ötən ilin noyabrında Astanada baş tutmuş X Astana Zirvəsi və bu ilin yayında keçirilmiş Şuşa Zirvəsi TDT-nin yeni mərhələ üçün inkişafının mühüm konsepsiyalarını məyyənləşdirib. "Türk Əsri" çağırışı altında keçirilən Astana Zirvəsində irəli sürülən təşəbbüslər olduqca mühüm məqamları əhatə edirdi - xüsusilə, Prezident İlham Əliyevin çıxışında təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə əməkdaşlığın daha da artırılmasına ehtiyacın olmasını qeyd etməsi yeni dövrdə Türk Dövlətləri Təşkilatı üçün mühüm perspektiv formalaşdırıb. Zirvə görüşündə çıxış edən dövlətimizin başçısı bildirmişdi ki, bu gün dünyanın müxtəlif bölgələrində beynəlxalq hüquq normaları kobudcasına pozulur. Müharibələr, qanlı münaqişələr alovlanır: "Belə olan halda, ilk növbədə, ölkələrin müdafiə potensialı təhlükəsizliyin əsas zəmanətinə çevrilir. Hesab edirəm ki, üzv ölkələr arasında təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə əməkdaşlıq daha da artmalıdır".

Bu günün rakursunda TDT üzvü olan ölkələrə qarşı hər hansı real təhlükələr hiss edilməsə belə, əməkdaşlığın hərbi müdafiə sahəsi üzrə inkişaf etdirilməsi inteqrasiyanı daha da sürətləndirəcək. Hazırda bölgə dövlətlərinin əksəriyyətinin fərqli regional hərbi bloklarda təmsil olunması da buna mane olmaz - bu mənada, TDT formatında həm NATO, həm də KTMT üzvü olan dövlətlər, Azərbaycanın timsalında Qoşulmama Hərəkatına uğurla liderlik etmiş ölkə təmsil olunur. Təbii ki, bu da mane olacaq faktor sayılmamalıdır. Xatırlayırıqsa, təşkilatın mülki müdafiə sahəsində əməkdaşlıq perspektivləri ilə bağlı aktiv müzakirələr davamlı şəkildə aparılır və bu, qarşıdakı dövr üçün yeni inteqrasiya sahələrini  aktuallaşdırmaq imkanındadır. Təbii ki, ortada mühüm bir nümunə mövcuddur - Azərbaycan ilə Türkiyə arasında imzalanan "Şuşa Bəyannaməsi" yeni dövr üçün TDT-nin hərbi əməkdaşlıq doktrinası rolunda çıxış edə bilər. Şuşa Bəyannaməsinin yeni dövr üçün Türk hərbi əməkdaşlığının əsas istinad nöqtəsi seçilməsi isə əsaslı və arqumentlidir - müqavilə iki dövlət arasında imzalansa da, orada əksini tapan məsələlər vacibliyinə və yeni çağırışlar nöqteyi-nəzərdən kollektiv müdafiə mexanizminin yaradılmasında da iştirak etmək qabiliyyətindədir. Sənəddə beynəlxalq müstəvidə birgə fəaliyyət və əməkdaşlıq, siyasi, iqtisadi, mədəni, humanitar və digər sahələrdə əlaqələrin inkişafı, xüsusilə də hər iki ölkənin milli və birgə təhlükəsizliyi ilə əlaqədar çox vacib məsələlər əks olunub - ən əsası, Bəyannamə müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutan, milli maraq və mənafeləri müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən hər iki ölkə tərəfindən müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyənləşdirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Beləliklə, TDT üzvü olan ölkələr də özlərinin müdafiə imkanlarının inteqrasiyasını məhz bu kriteriyalar üzrə inkişaf etdirə bilərlər.

## Qarabağ Bəyannaməsi: strateji yol xəritəsi...

TDT-nin Şuşa Zirvəsində imzalanan Qarabağ Bəyannaməsi isə təşkilatın strateji yol xəritəsi sayıla bilər. Sənəd Türk dünyasını regionda və dünyada sülh, təhlükəsizlik, sabitlik, inkişaf və tərəqqi ideyalarına sadiq olan türk xalqlarının ortaq etnik köklər, tarix, dil, mədəniyyət, ənənələr və dəyərlərinə söykənən ailə olduğunu bir daha ortaya qoyur. Bəyannamədə Türk xalqlarının qitə miqyasında töhfələri, qlobal siyasət, iqtisadiyyat və sivilizasiyaların inkişafında tarix boyu oynadığı rol ən yüksək şəkildə dəyərləndirilir. Sənəddə strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi və dərinləşdirilməsi, TDT-nin kollektiv strategiyasının formalaşdırılması üçün siyasi, iqtisadi, nəqliyyat, müdafiə sənayesi, humanitar, təhsil və mədəniyyət sahələrində türk dövlətlərinin tam potensialından və imkanlarından istifadə edilməsinin vacibliyi qeyd edilir. Bundan başqa, Türk dövlətlərinin qlobal miqyasda potensialı nəzərə alınmaqla daha iddialı məqsədlərin qarşıya qoyulmasının, birgə səylərin artırılması və strateji əhəmiyyətli regional layihələrin həyata keçirilməsi yolu ilə dayanıqlı gələcəyin qurulması baxımından TDT-nin vəzifə və məqsədlərinin səmərəli həyata keçirilməsi üçün müvafiq mexanizm və qaydaların tətbiqinin zəruriliyi ortaya qoyulur. Paralel olaraq Bəyannamədə üzv dövlətlərin milli qanunvericiliyinə uyğun olaraq müdafiə sənayesi sahəsində birgə fəaliyyətin davam etdirilməsi niyyətləri bir daha vurğulanır və bu xüsusda lazımi tədbirlərin görülməsi üçün üzv dövlətlərin aidiyyəti qurumlarına tapşırıq verilməsi əksini tapır. Beləliklə, bu Bəyannamə TDT-nin inkişaf perspektivi ilə yanaşı istiqamətlərini də müəyyənləşdirir. Bu isə Bişkek Zirvəsindən gözləntiləri daha da artırır - 15 illik yaranış yubileyinin ardından baş tutacaq ilk Sammit Türk dünyasının qlobal məkanda yeni təqdimatına çevrilə bilər...

**P.İSMAYILOV**

# Şuşada mühüm iclas...

## İslam Dünyası İrs Komitəsinin 12-ci sessiyası baş tutub

Ölkəmiz özünəməxsus qədim maddi və mənəvi irsə, mədəni dəyərlərə malikdir. Milli mədəniyyətimizin qorunması və inkişafı həm də milli dövlətçiliyin möhkəmləndirilməsi deməkdir. Azərbaycan xalqı öz dilinə, adət-ənənələrinə, mədəniyyətinə, ədəbiyyatına, tarixinə, eləcə də milli-mənəvi dəyərlərinə hər zaman bağlı olub. Məhz bu bağlılıq sayəsində dəyərlərimiz bu günədək özünəməxsusluğunu qoruyub saxlaya bilib.

Bunun nəticəsidir ki, əsrlər boyunca təşəkkül tapmış və yaşadılmış milli-mənəvi irsimizin əhəmiyyətli hissəsi bu gün də cəmiyyət həyatının ən müxtəlif sahələrində əks olunur. Məsələn, dövlətimizin mədəniyyət siyasətində maddi və mənəvi irsin qorunması, beynəlxalq miqyasda təbliği əsas istiqamətlərdən biridir. Ölkəmiz bununla bağlı bir sıra mühüm tədbirlərə ev sahibliyi edir. Həmin tədbirlərin keçirilməsində əsas məqsədlərdən biri isə Azərbaycanın elm və mədəniyyətinin, həmçinin dövlətçilik tariximizin təbliği, ölkəmizə gələn qonaqlara adət-ənənələrimiz barədə məlumatın verilməsidir.

Xatırladaq ki, Prezident İlham Əliyev 2022-ci ili "Şuşa ili" elan etmişdi. Ölkə başçısı 2022-ci il yanvarın 5-də isə bununla bağlı Sərəncam imzaladı. Mühüm siyasi və tarixi əhəmiyyət kəsb edən bu sərəncam dövlət başçısının xalqımızın tarixi və mədəni dəyərlərimizə xüsusi diqqətinin, böyük ehtiramının göstəricisi idi. 2022-ci ilin Azərbaycanda "Şuşa İli" elan edilməsi, həmçinin Şuşanın bu günü və gələcəyi ilə bağlı kompleks tədbirlərin həyata keçirilməsi üçün mühüm əhəmiyyətə malikdir.

Məlumdur ki, Şuşa işğaldan azad edildikdən sonra öz beynəlxalq şöhrətini bərpa edib. Düşmən əsarətindən azad edilmiş Şuşa mədəniyyətimizin, adət-ənənələrimizin, milli və dini dəyərlərimizin təbliği istimqamətində müxtəlif və mötəbər tədbirlərə ev sahibliyi edir.

Həmin tədbirlərdən biri də oktyabrın 8-9-da baş tutdu. Belə ki, oktyabrın 8-də İslam dünyasının mədəniyyət paytaxtı Şuşada ICESCO-nun İslam Dünyası İrs Komitəsinin 12-ci sessiyası işə başlayıb. İclasın keçirilməsində məqsəd üzv dövlətlərin öz tarixi obyekt və mədəniyyət elementlərinin ISESCO-nun İslam Dünyası İrs Siyahısına daxil edilməsi ilə bağlı təkliflərin müzakirə edilməsidir.

Mədəniyyət Nazirliyindən bildirilib ki, Şuşaya gələn qonaqlar əvvəlcə mədəni irs yerlərinə ekskursiya ediblər. Tədbirdə çıxış edən Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov qonaqları salamlayıb və komitənin işinə uğurlar arzulayıb. Sonra ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malikin tədbir iştirakçılarına müraciəti oxunub.



Mədəniyyət nazirinin müavini Səadət Yusifova çıxışında Azərbaycanın mədəni irsi və bu irsin qorunması naminə həyata keçirilən dövlət siyasəti haqqında ətraflı məlumat verib. Ölkəmizin zəngin tarixi-mədəni irsində Qarabağ irsinin xüsusi yer tutduğunu deyən S.Yusifova, işğal dövründə dağıdılmış abidələrə dair statistik məlumatları paylaşaraq, mədəni mühitin və irsin canlandırılması üçün hazırda davam edən bərpa-quruculuq işləri haqqında danışıb. Bununla yanaşı, təbii irsin qorunmasının vacibliyini vurğulayan nazir müavini, Mədəniyyət Nazirliyinin COP29 çərçivəsində planlaşdırdığı beynəlxalq tədbirlər və yeni təşəbbüslər haqda danışıb.

Komitənin sədri, Səudiyyə Ərəbistanın təmsilçisi Alayidarus Muhammed yüksək səviyyədə təşkilatçılığa görə ev sahibi Azərbaycana təşəkkürünü bildirib və sessiyanın gündəliyi barədə məlumat verib.

Açılış sessiyasının sonunda Şuşa Şəhəri Dövlət Qoruğuna həsr olunmuş xüsusi təqdimat izlənilib. Daha sonra Komitənin üzvləri xatirə fotosu çəkdiriblər.

Fasilədən sonra keçirilən birinci sessiyada İslam Dünyası İrs Mərkəzinin direktoru Vebber Ndoro tərəfindən Mərkəzin konsepsiyası, növbəti iki ili əhatə edən prioritetləri təqdim olunub. Təqdimata dair Azərbaycan, Burkino Faso, Qətər, Fələstin və digər ölkələrin təklifləri müzakirə edilib. Ekspertlər şurasında ölkəmizi təmsil edən Rizvan Bayramovun çıxışında Komitə tərəfindən İslam ölkələrində mövcud olan qeyri-islam irsi, eləcə də, qeyri-islam ölkələrində mövcud İslam irsinin müvafiq siyahıyaalma mexanizmləri üzrə işin təkmilləşdirilməsi təklif olunub.

İkinci sessiyada isə 2024-cü ildə həyata keçirilmiş layihələr üzrə hesabatlara baxılıb, Komitə üzvlərinin təklifləri müzakirə edilib. ICESCO-nun İslam Dünyası İrs Komitəsinin 12-ci sessiyası işini dünən tamamlayıb.

*Yeganə BAYRAMOVA*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti üzrə hazırlanmışdır**

# Əmək bazarı rəqəmsallaşdırılır

## Kargüzarlıq sisteminin ləğvi nəticəsində əmək müqavilələrinin bağlanması və nəzarəti yalnız elektron resurslar üzərində təmin olunur

Ölkədə həyata keçirilən təşviq əsaslı vergi siyasətinin əmək bazarına müsbət təsirləri davam edir. İş yerlərinin rəsmiləşdirilməsi, əmək haqqı fondunun "ağardılması" və şəffaflığın təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlərin nəticəsi olaraq, bağlanmış əmək müqavilələrinin sayı güzəştlərin tətbiq edilməyə başlanıldığı 2019-cu ilin əvvəli ilə müqayisədə 450.972 vahid artaraq 2024-cü il oktyabr ayının 1-nə 1.852.887 təşkil edib. Qeyri-neft sektorunun özəl bölməsində həmin göstərici 430.502 vahid artaraq 970.424-ə çatıb.

Əmək müqavilələrinin sayında artımın baş verməsinin başlıca səbəbi biznesin iqtisadi fəallığının yüksəlməsi, yeni müəssisələrin fəaliyyətə başlaması, investisiya təşviqi çərçivəsində həyata keçirilən layihələr və təşviq əsaslı vergi islahatları ilə bağlıdır.

### Rəsmi məşğulluğun təmin edilməsi sığorta yığımlarının yüksəlməsinə səbəb olub

Əmək müqavilələrinin artımı və rəsmi məşğulluğun təmin edilməsi ölkə üzrə sığorta yığımlarının da həcminin yüksəlməsinə səbəb olub. 2024-cü ilin yanvar-sentyabr ayları ərzində muzdlu işçi sayının və əməkhaqqı fondunun "ağarması" prosesi şəraitində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 4 milyard 161,2 milyon manatdan çox olub. Bu mənbədən daxilolmalar əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 10,5 faiz və ya 395,7 milyon manatdan çox artıb. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar ötən ilin eyni dövrü ilə müqayisədə 13,2 faiz artaraq 2,7 milyard manatdan çox təşkil edib.

İşsizlikdən sığorta haqları üzrə daxilolmalar ötən ilin eyni dövrü ilə müqayisədə 12 faiz artıb və 148,7 milyon manata yaxın olub. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 14,5 faiz artaraq 112,4 milyon manat təşkil edib.

İcbari tibbi sığorta haqları üzrə daxilolmalar 2023-cü ilin müvafiq dövrünə nisbətən 8,1 faiz artıb və 738,1 milyon manat olub. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 9,1 faiz artaraq 524,9 milyon manat təşkil edib.

### E-qeydiyyat sistemi əmək münasibətlərini leqallaşdırır

Əmək müqavilələrinin sayının artmasında, ümumiyyətlə, əmək münasibətlərinin leqallaşdırılmasında e-qeydiyyat sistemi xüsusi rol oynayıb. Qeyd edək ki, Azərbaycanda əmək müqavilələrinin elektron qeydiyyat sistemi təxminən 5 ildən artıqdır ki, fəaliyyət göstərir. Sistem əmək münasibətlərinin elektron müstəvidə şəffaflaşdırılmasına, bu münasibətlərin dəqiq və əhatəli uçotunun aparılmasına, əmək bazarına çevik və obyektiv, səmərəli dövlət nəzarətini təmin etmək məqsədilə yaradılıb. Məqsəd ölkənin bütün muzdla çalışan əhalisini əhatə edən əmək müqavilələrinin elektron qeydiyyat sistemi vasitəsilə işçilərin əmək və gələcək layiqli pensiya təminatı üçün də etibarlı hüquqi əsas formalaşdırmaqdır. İndiyədək bu sistemdən 8 milyondan çox insan istifadə edib. Ancaq buna baxmayaraq, hökumət hələ də "kölgə iqtisadiyyatı"nın təzahürlərinə rast gəlindiyini, rəsmiləşdirilməmiş əmək müqavilələrinin mövcud olduğunu bildirir. Təhlillərə əsasən, hazırda ölkədə məşğul əhalinin sayı 5 milyon nəfərə yaxındır. Onun təxminən 1,8 milyon nəfəri muzdlu işçilərdir və onlar əmək münasibətləri qanunvericiliyinin tələblərinə uyğun olaraq rəsmiləşdirilib. Amma bu göstərici daha çox olmalıdır. İşəgötürənlərin böyük bir qismi yenə də öz işçilərinin adlarını rəsmiləşdirmir, işçilərin əmək və sosial hüquqlarını pozmaqla məşğuldur. Əmək müqaviləsi ilə işləyənləri nəzərə almasaq, 2 milyona yaxın məşğul insan mülki-hüquqi müqavilə ilə işləyir və xidmətlər göstərir, onlar qeyri-formal əmək bazarının iştirakçısıdır, onların əmək münasibətlərini isə tənzimləmək hələ də mümkün deyil.



### ƏMAS hamını vahid elektron platformada birləşdirir

Vergi və sosial müdafiə orqanları hesab edir ki, bəzi iqtisadi fəaliyyət sahələrinə aid qanunlarda və normativ aktlarda mövcud olan boşluqlar işəgötürənləri öz qanunsuz əməllərini həyata keçirməyə şərait yaradır. Məsələn, əmək münasibətlərinin rəsmiləşdirilməməsi, istifadə olunan işçilərin sayının gizlədilməsi hallarına daha çox tikintidə rast gəlinir. Mövcud tikinti qanunvericiliyi və normaları iş adamlarına imkan verir ki, işçilərinin sayını gizlədə bilsin. Xidmət müqavilələri, subpodratçılıq münasibətləri bu mənada, sahibkarların işini asanlaşdıran formalardır. Maraqlıdır ki, həm xidməti müqavilə, həm də subpodratçılıq müvafiq normativ aktlarda nəzərdə tutulub. Bu istiqamətdə nəzarət tədbirləri ilə yanaşı, qanunvericiliyin təkmilləşdirilməsinə ehtiyac var.

Qeyd edilənlər nəzərə alınaraq dövlət başçısının müvafiq fərmanına əsasən, cari ilin avqust ayında "Əmək Məcəlləsinə" dəyişikliklər edilib. Yeni dəyişikliklərə əsasən, Azərbaycanda əmək müqaviləsinin bağlanması qaydası dəyişib və kargüzarlıq sistemi ləğv olunub, kağız daşıyıcılardan imtina nəticəsində əmək müqavilələrinin bağlanması və nəzarəti birbaşa elektron resurslar üzərində təmin olunmaqdadır. Əmək müqavilələrinin elektronlaşması üçün Əmək və Əhalinin Sosial Müdafiəsi (ƏƏSMN) mövcud infrastrukturu da tamamilə rəqəmsallaşdırıb. Ötən dövr ərzində "Əmək və məşğulluq" altsistemini (ƏMAS) istifadəyə verən nazirlik əmək və məşğulluq sahəsində islahatların davamı kimi işəgötürənlər və işçilərin, işsiz və işaxtaranların vahid elektron platformada mərkəzləşdirilmiş reyestrini təmin edib. "Əmək və məşğulluq" altsisteminin tətbiqinin rəqəmsal platformaya əsaslanması kağız üzərində kadr inzibatçılığının ləğvinə səbəb olub.

### Əmək müqaviləsinin saxtalaşdırılması mümkün olmayacaq

Ümumilikdə, əmək bazarının büsbütün rəqəmsallaşdırılması nəzərdə tutulur ki, rəqəmsal platforma yeganə əmək münasibətlərinin tənzimlənməsini təmin edəcək. Əmək müqavilələrinin tamamilə elektronlaşdırılması əmək münasibətləri, dövlət sosial sığorta sistemində fərdi uçot və məşğulluq sahələrində rəqəmsal xidmətlərin genişləndirilməsinin hüquqi əsaslarını müəyyən edən normativ hüquqi aktların təkmilləşdirilməsinə xidmət edəcək. Dəyişikliklərdən sonra daha da təkmilləşdirilən altsistem vasitəsilə işçi qüvvəsinin sayı, balansı, işçi qüvvəsinə təklif və tələbin ehtimal olunan həcmi və bölüşdürülməsi barədə bütün dəqiq göstəricilər də müəyyən olunacaq. Bu isə əmək bazarı, dövlət sosial sığorta sistemi və məşğulluq sahələrində vahid platforma üzərindən rəqəmsal idarəetmənin tətbiqi yolu ilə digər inzibati orqanlar tərəfindən inzibati icraat çərçivəsində məlumat mübadiləsinin asanlaşmasına, bu sahədə nəzərə çarpan süründürməçilik, saxtakarlıq, ikili mühasibatlıq və s. halların aradan qaldırılmasına gətirib çıxaracaq. Bu, həm də müəssisə və təşkilatların, özəl sektorun, sahibkarlıq icmasının işçilərlə əmək müqaviləsini saxtalaşdırması hallarına da son verəcək.

*ELBRUS CƏFƏRLİ*

# "Yaşıl avtomobil" parkını genişləndirən vergi təşviqləri

Azərbaycanda az karbonlu nəqliyyat sektorunun inkişaf etdirilməsi tədbirlərinə uyğun olaraq ekoloji baxımdan daha təmiz avtomobillərin idxalına vergi-gömrük güzəştlərinin tətbiqi əsas prioritetlərdən biri kimi müəyyən olunub. Əsas məqsəd ölkəmizdə ənənəvi avtomobil parkını tədricən elektroavtomobillərlə əvəz etmək, elektrikomobillərin sayını sürətlə artırmaq, avtomobil idxalı ilə məşğul olan sahibkarları bu sahəyə motivasiya etməkdir. Oktyabrın 8-də parlamentin plenar iclasında birinci oxunuşda qəbul edilən Vergi Məcəlləsinə dəyişikliklər layihəsi də ekoloji təmiz nəqliyyat sektorunun stimullaşdırılmasına yönələn tədbirlərin tərkib hissəsi hesab edilə bilər. Məcəlləyə dəyişikliklərə əsasən,

## 2025-ci ildən avtomobillər üçün enerji doldurucularının idxalı və satışı ƏDV-dən azad olunacaq

2025-ci il yanvarın 1-dən etibarən elektrik mühərriki ilə işləyən avtomobillər üçün enerji doldurucularının idxalı və satışı 2 il müddətində ƏDV-dən azad olunacaq.

### Vergi-gömrük güzəştləri elektromobillərin idxalını kəskin artırıb

Ölkədə avtomobil parkının "yaşıllaşdırılması", elektriklə işləyən avtomobillərin sayının artırılması üçün müxtəlif stimulların verilməsi 2 ildir ki, həyata keçirilir. Vergi Məcəlləsinə edilmiş müvafiq dəyişikliklərə əsasən, 2022-ci ilin yanvarın 1-dən elektrik mühərriki ilə işləyən avtomobillərin idxalı və satışı əlavə dəyər vergisindən azad edilib. Həmçinin, elektrik mühərriki ilə işləyən avtomobillər üçün ikinci və üçüncü səviyyə elektrik enerji doldurucularının idxalı və satışı - 2022-ci il yanvarın 1-dən 3 il müddətinə əlavə dəyər vergisindən azad olunub. Həmçinin, Nazirlər Kabinetinin11 noyabr 2022-ci il tarixli müvafiq qərarına əsasən, zavod buraxılış tarixindən 3 ilədək ötmüş yalnız elektrik mühərrikli minik avtomobillərinin mövcud 15 faiz idxal rüsumu sıfır dərəcə müəyyən edilib. Eyni zamanda, qərara əsasən, elektrik mühərrikli avtomobillər üçün ikinci və üçüncü səviyyə elektrik enerji doldurucuları üzrə idxal rüsum dərəcəsi də 5 fazidən 0 dərəcəcəyə endirilib.

Nəticədə bu təşviqlər ekoloji cəhətdən təmiz avtonəqliyyat vasitələrinin istifadəsinin stimullaşdırılmasına və idxalın artmasına səbəb olub. Son 2 il ərzində hibrid və elektromobillərin idxalı 2 dəfən çox böyüyüb. Təkcə 2024-cü ilin ötən səkkiz ayında Azərbaycana 387 milyon 875 min dollar dəyərində 13 min 504 ədəd hibrid avtomobil idxal olunub ki, bu da 2023-cü ilin eyni dövrü ilə müqayisədə 40,1 faiz çoxdur. Bundan başqa, qeyd edilən dövrdə 2 minə yaxın elektromobil idxal edilib ki, bu da ötən illə müqayisədə 25 faizdən çoxdur.





### "Avro-6" və "Avro-7" standartına keçidə hazırlıq...

Azərbaycan hökuməti Yaşıl Dünya Naminə Həmrəylik ilində üzərinə götürdüyü öhdəliklərə və qlobal iqlim çağırışlarından irəli gələn tələblərə uyğun olaraq avtomobil sənayesi parkını tamamilə "yaşıllaşdırmaq"da israrlıdır və avtonəqliyyat vasitələrinin "Avro-5" və daha yüksək ekoloji standartlara keçidinin təmin olunmasına çalışır. Bu istiqamətdə atılan addımlardan biri kimi bir neçə ay əvvəl Nazirlər Kabineti qərar qəbul edərək şəhər nəqliyyatında, ələlxüsus da taksi minik avtomobillərinin "Avro-5" ekoloji standartlara uyğunlaşdırılması tələblərini müəyyənləşdirib. Sənədə əsasən, yaşı 10 ildən çox olan minik avtomobillərinin Azərbaycan ərazisinə gətirilməsi məhdudlaşdırılacaq. Həmçinin iyunun 1-dən etibarən dövlət qeydiyyat şəhadətnaməsində göstərilən buraxılış tarixindən 8 ildən artıq müddət keçmiş avtonəqliyyat vasitəsinə "Avtomobil nəqliyyatı haqqında" qanunla müəyyən edilən buraxılış kartı verilmir. Azərbaycan özü iyun ayından "Aİ-95" markalı benzin istehsalını təmin etməklə, avtomobil və dizel yanacağının tamamilə həmin normativlərə uyğunlaşdırılmasına nail olub.

Qeyd edək ki, "Avro-5" standartlı yanacağın istifadəsi avtomobilin işlənmiş qazının tüstüsünü azaldır və ətraf mühitə karbon emissiyasını azaldır. "Avro-5" avtomobilin işlənmiş qazlarındakı zərərli maddələrin tərkibini tənzimləyən ekoloji standartdır və təmiz ekoloji mühitin təmin edilməsində beynəlxalq miqyasda qarşıya qoyulmuş tələblərdən biridir.

Bu istiqamətdə ekoloji təkmilləşdirmələrə və de-karbonizasiya planına uyğun olaqar, yaxın dövrlərdə "Avro-6" ekoloji standartına keçidin təmin edilməsi nəzərdə tutulur. 2050-ci ilə qədər istixana qazı emissiyalarının 40 faizə qədər azaldılmasını hədəf prioritetlərdən biri elan etmiş hökumət ətraf mühitə buraxılan zərərli yanacaq emissiyalarının daha da azaldılması məqsədilə növbəti mərhələlərdə avtomobillərin "Avro-6" və "Avro-7" standartına keçidinin təmin edilməsini planlaşdırır.

### "Təmiz ətraf mühit" çağırışlarından irəli gələn yeni tələblər...

Yuxarıda qeyd edilən hədəflər həm də "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də yer alan 5-ci istiqamətə - "təmiz ətraf mühit və "yaşıl artım ölkəsi" çağırışlarına söykənir. Həmin konsepsiyada müxtəlif stimullaşdırıcı və motivləşdirici alətlərin tətbiqinə üstünlük verilməsi öz əksini tapıb ki, hazırda həyata keçirilən vergi-gömrük siyasəti də bu prinsiplərdən irəli gəlir. Ona görə də karbon emissiysasının azaldılmasını təşviq edən "ağıllı sənaye texnologiyaları"nın, ekoloji təmiz nəqliyyat vasitələrinin ümumi istehlakda payının daha da artırılması üçün qarşıdakı dövrdə ekoloji və "yaşıl vergilər"in tətbiq dairəsinin müəyyən edilməsi istiqamətində əlavə tədbirlər görüləcək. Ekoloji cəhətdən təmiz avtonəqliyyat vasitələrinin istifadəsinin stimullaşdırılması və təşviqi məqsədilə vergi-gömrük tətillərinin artırılması işləri davam etdiriləcək. Həmçinin "yaşıl tövsiyə"lərə əsasən, ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin infrastrukturunun təkmilləşdirilməsi də planlaşdırılır.

*E.CƏFƏRLİ*

**NATO generalı Bakıya niyə gəlib?**

# Cənubi Qafqazın təhlükəsizlik simvolu...

## Son dövrlərdə separatizmə qarşı mübarizədə uğurlu və qəti nəticələr əldə edən yeganə dövlətik

2020-ci il Vətən müharibəsindən sonra yaranan hərbi-siyasi situasiya yalnız ərazi bütövlüyümüzün təmini və suverenliyimizin bərpası ilə məhdudlaşmadı - Azərbaycan yeni dövr üçün böyük bir coğrafiyanın mühüm təhlükəsizlik amilinə çevrildi. Bu dövrə qədər də Azərbaycan Qoşulmama Hərəkatının sədri qismində beynəlxalq çağırışların təşəbbüskarı qismində çıxış edirdisə, artıq beynəlxalq təhlükəsizlik müstəvisinə öz töhfələrimizi veririk. Cənubi Qafqazda separatizmin sona çatdırılması, 30 ilə yaxın davam etmiş işğal faktının aradan qaldırılması və beynəlxalq hüququn təmini ölkəmizin bu istiqamətdəki addımlarını özündə əks etdirməkdədir. Azərbaycan son dövrlərdə yeganə ölkədir ki, separatizmə qarşı mübarizədə uğurlu və qəti nəticələr əldə edib. Bu isə təbii olaraq bölgəmizə, xüsusilə də Azərabycana marağı və diqqəti artırır. Son günlərdə aparıcı təhlükəsizlik orqanlarının rəhbərlərinin Bakıya səfəri də bunu təsdiqləyir. Paralel olaraq beynəlxalq terrorizmə qarşı mübarizəni öz fəaliyyətinin prioriteti elan etmiş NATO-nun rəsmi nümayəndəsinin paytaxtımıza səfəri də analoji mahiyyətdən qaynaqlanır. Ümumiyyətlə, son proseslərdən sonra iqtisadi, siyasi, hətta hərbi strukturlar regiona həssas yanaşır, Azərbaycanın yaratdığı yeni reallıqları təftiş və təqdir edir. Bu mənada, NATO-nun da regionla bağlı maraqları anlaşılandır.

### Sülh prosesinə əngəl yaratmaqla...

Qeyd edək ki, NATO-nun Beynəlxalq Hərbi Qərargahının Baş direktoru general-leytenant Yanuş Adamçak Bakıya səfər edib. Səfər çərçivəsində NATO nümayəndə heyəti Hərbi Qənimətlər Parkında olub, Vətən müharibəsi zamanı düşməndən qənimət götürülmüş atıcı silah, zirehli və xüsusi texnika, artilleriya qurğuları, raket kompleksləri və digər hərbi təyinatlı vasitələrə baxıblar. Daha sonra NATO nümayəndə heyəti Heydər Əliyev adına Hərbi İnstitutu və Hərbi Dəniz Qüvvələrinin hərbi hissəsini də ziyarət edib.

Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ölkəmizdə səfərdə olan NATO-nun Beynəlxalq Hərbi Qərargahının Baş direktoru general-leytenant Yanuş Adamçak ilə görüşüb. General-polkovnik K.Vəliyev NATO ilə münasibətlərin cari vəziyyətini yüksək qiymətləndirib və qarşılıqlı əlaqələrin inkişaf etdirilməsinin vacibliyini vurğulayıb. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan şanlı Qələbənin tarixi əhəmiyyətindən danışan Baş Qərargah rəisi hərbi əməliyyatlar zamanı Azərbaycan Ordusu tərəfindən beynəlxalq humanitar hüququn norma və prinsiplərinə ciddi riayət edildiyini və mülki əhalinin hədəfə alınmadığını xüsusi qeyd edib. "Ölkəmiz azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərini, eləcə də humanitar minatəmizləmə fəaliyyətini sürətlə davam etdirir. Qarşımızda duran əsas maneə Ermənistanın işğalı nəticəsində yaranmış mina terrorudur", - deyə general-polkovnik K.Vəliyev bildirib.

Qonaqlar, həmçinin Azərbaycan-Ermənistan şərti sərhədində cari vəziyyət barədə də ətraflı məlumatlandırılıb. General-polkovnik K.Vəliyev NATO-nun Əməliyyat İmkanları Konsepsiyası çərçivəsində bölmələrin hazırlığına böyük töhfə verildiyini bildirərək, əməkdaşlığımızın bundan sonra da davam etdirilməsinin zəruriliyini qeyd edib. Baş Qərargah rəisi şərti sərhədin Ermənistan ərazisində Avropa İttifaqının müşahidəçi missiyasının yerləşdirilməsi, habelə regiondan kənar bəzi ölkələrin, xüsusilə Fransanın Ermənistanı silahlandırmasının orada revanşist qüvvələrin baş qaldırmasına, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması və sülh prosesinə əngəl yaratmaqla Cənubi Qafqazda vəziyyətin gərginləşdirilməsinə səbəb olduğunu xüsusi vurğulayıb.

General-leytenant Y.Adamçak Azərbaycana səfərindən məmnunluğunu ifadə edib, Azərbaycan Ordusunun hərbi qulluqçularının NATO ilə tərəfdaşlıq çərçivəsində bütün sahələrdə fəaliyyətini yüksək qiymətləndirib, o cümlədən Əfqanıstandakı "Qətiyyətli dəstək" qeyri-döyüş və digər sülhməramlı missiyalarda verdiyi töhfəyə görə minnətdarlığını bildirib. Görüşdə hərbi, hərbi təhsil sahəsində birgə əməkdaşlıq, regional təhlükəsizlik və digər məsələlər müzakirə edilib.



### Fransanın revanşizmi yenidən alovlandırmaq istəyi...

Qeyd olunduğu kimi, bu gün bölgədə daim sülhün və sabitliyin bərqərar olmasına ən böyük maneə Ermənistan və onu silahlandıran dövlətlərdir. Xüsusilə Fransa özünün lokal maraqlarını təmin etmək üçün bölgədə yeni kataklizmin yaranmasına çalışır. Revanşizmi alovlandırmaq istəyən Paris paralel olaraq Ermənistana öldürücü silahlar ixrac edir ki, bu da regionda formalaşan sülh prosesinə mühüm əngəllər yaradır. 30 ilə yaxın işğal siyasəti yürütmüş və bölgədə təhdid kimi çıxış etmiş bir dövlətin silahlandırılması isə mənfi tendensiyalara yol aça bilər.

Bu, bütövlükdə, qlobal təhlükəsizliyə təhdid yaradır. Çünki Fransanın Ermənistana verdiyi "Arquus" qrupunun istehsalı olan "Bastion" tipli zirehli texnika, MISTRAL 3 zenit-raket kompleksləri, və başqa silahlar kifayət qədər öldürücü mahiyyətə malikdir. Eyni mahiyyət Hindistanın əli ilə Ermənistana çatdırılan Fransa silahlarına da şamil olunur - özünün ixrac etdiyi və istehsalçısı olduğu, amma Hindistanın əli ilə Ermənistana çatdırılan silah-sursatın verilməsinin əsl məqsədi də regionda antisülh ab-havası yaratmaqdır. Söhbət əsasən "Pinaka" raket sistemlərinin və onların sursatlarının, eləcə də tank əleyhinə digər silahların satışından gedir.

### Tərəfdaşlığımız müsbət olub...

Halbuki Azərabycanın yaratdığı yeni reallıqlar özündə yeni dövrün çağırışlarını əsaslandırır və əks etdirir. Ölkəmiz yaranan yeni siyasi mənzərəni regionların ümumi əməkdaşlıq platformasına uzlaşdırmaq niyyətindədir. Cənubi Qafqazın təhlükəsizlik qarantı olan Azərbaycan bir daha ortaya qoyur ki yerləşdiyimiz bölgə artıq qarşıdurma, rəqabət məkanı deyil, təhlükəsiz tərəfdaşlıq və təhlükəsiz əməkdaşlıq məkanı kimi tanınsın. Eyni zamanda, qlobal iqtisadi nizamda Cənubi Qafqazın fəal iştirakının təmini uğrunda görülən işlər paralel şəkildə təhlükəsizliyin təmini ilə müşayiət olunsun. Bu isə həm də qlobal təhlükəsizliklə bağlı əməkdaşlığı gücləndirir. Azərbaycanın beynəlxalq təhüləksizliyin təminində oynadığı mühüm rol həm də ölkəmizin NATO ilə yaxın əməkdaşlığına əsaslanır - hətta bu ilin martında NATO-nun keçmiş Baş katibi Yens Stoltenberqin Bakı səfəri mühüm nüansları ilə yadda qalmışdı. Azərbaycan Prezidenti İlham Əliyev NATO-nun Baş katibi Yens Stoltenberqlə görüşdən sonra mətbuata bəyanatında bildirmişdi ki, Azərbaycan-NATO tərəfdaşlığının 30 ildən artıq davam edən uzun tarixi var. Dövlət başçımız vurğulamışdı ki, tərəfdaşlığımız müsbət olmuşdur.

Beləliklə, ölkəmizin mövqeyi açıq və birmənalıdır - Azərbaycan regionda sülhün, sabitliyin bərqərar olmasını istəyir. Buna mane olan qüvvələrin destruktiv hərəkətləri isə beynəlxalq ictimaiyyət tərəfindən qınanılmalıdır.

***P.SADAYOĞLU***

# Aİ-nin "missiyası" nəyə baxır?

## Bütün faktlar mümkün təxribatın anonsunu verir...

2022-ci ilin martında Azərbaycan tərəfindən irəli sürülən sülh təşəbbüsü Cənubi Qafqaz üçün yeni perspektivlər vəd edirdi. Bu təşəbbüs ilk növbədə özündə sabitliyi və iqtisadi inkişafa əsaslanan regional əməkdaşlığı nəzərdə tuturdusa, Ermənistan üçün daha mühüm məqamlar vəd edirdi.

Amma Ermənistana üzdə "havadarlıq" edən, arxa planda isə özünün korporativ maraqlarını əsas götürən Qərb sülhün reallaşmasına bu və ya digər şəkildə maneə yaratmaqdadır. 2022-ci ilin oktyabrında Aİ-nin Ermənistana göndərdiyi və əsl fəaliyyətinin "monitorinq" olacağı bəyan edilən "mülki missiya" bunun ən real mənzərəsini yaradır. Monitorinqdən başqa bütün "qara missiyaları" yerinə yetirən, əslində isə "kəşfiyyat qrupu" olan Aİ-nin mülki missiyası ilk vaxtlarda 40 nəfərlik heyətdən ibarət idisə, artıq bu say 200-ü keçib. Missiyanın tərkibi ilə yanaşı, ofislərinin də sayı artırılıb. Burada isə artıq şərhə ehtiyac qalmır. Ötən dövr ərzində kəşfiyyat qrupunu tam şəkildə Ermənistana yerləşdirmək imkanı "qazanan" Aİ-nin məqsədi bəllidir - onlar nəinki real situasiyanı monitorinq edirlər, birmənalı şəkildə Azərbaycana qarşı təxribatların hazırlanmasında iştirak edirlər.

### Missiya nəyin "monitorinqini" aparır?

Son günlərdə yayılan məlumatlarda bildirilir ki, şərti dövlət sərhədimizin yaxınlığına gələn 8 nəfər Aİ missiyasının üzvü və erməni hərbçiləri cihazları ilə ərazilərimizi müşahidə ediblər. Aylardır ki, "durbini"ni Azərbaycana tərəf tuşlayan bu missiyanın əsl fəaliyyət dairəsi monitorinq olmalı deyildimi? Onlar niyə baş verən real hadisələri monitorinq etmirlər? Məsələn:

- Sentyabrın 4-ü saat 19:35 radələrində Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu istiqamətində yerləşən mövqeləri Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən atıcı silahlardan atəşə tutulub.

- Sentyabrın 5-i isə saat 09:55 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Zağalı yaşayış məntəqəsi istiqamətindəki mövqelərindən Ordumuzun Kəlbəcər rayonunun Zivel yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

- Sentyabrın 26-sı saat 16:10 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Qarakilsə rayonunun Ərəvus yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Ləkətağ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini iri çaplı pulemyotlardan atəşə tutub.

- Sentyabrın 28-i saat 23:20 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Keşişkənd rayonunun Almalı yaşayış məntəqəsi istiqamətindəki mövqelərindən Ordumuzun Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Yuxarı Buzqov yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Beləliklə, nümunə olaraq göstərdiyimiz bir neçə atəşkəs faktı niyə Aİ missiyasının hər hansı bir hesabatında qeyd edilmir? Axı, bu missiyanın əsl işi məhz budur - amma onlar şərti sərhəd adlanan ərazilərdə kəşfiyyat fəaliyyəti göstərir və Ermənistanı revanşizmə yönəldərək fürsət axtarırlar.

### Mühüm təxribatın anonsu...

Aİ missiyasının hərbi xarakterli olması şübhəsizdir - bununla bağlı real faktlar dəfələrlə yazılıb və səsləndirilib. Missiya ilə paralel olaraq Ermənistana öldürücü silahların verilməsi bir faktı da aktual edir - bu missiyanın üzvləri həmin silahlardan istifadə ilə bağlı təlim keçən kuratorlardır. ABŞ-Aİ işbirliyinin məntiqi nəticəsi olaraq meydana çıxan bu məsələ də öz təsdiqini tapır. Belə ki, bir müddət öncə ABŞ Ermənistanda kütləvi qırğın silahlarına (KQS) qarşı mübarizə çərçivəsində Ermənistan dövlət idarəetmə sisteminin səlahiyyətli orqanlarının iştirakı ilə səhra təlimləri keçirilib. Təlimlər ABŞ Müdafiə Nazirliyinin Təhdidlərin Azaldılması Agentliyi ilə birgə keçirilib və Ermənistan Təhlükəsizlik Şurasının əməkdaşları tərəfindən əlaqələndirilib. Rəsmi məlumata görə, təlimin məqsədi kimyəvi, bioloji, radioloji və nüvə təhlükələrinin yayılmasına qarşı Ermənistanın cavab tədbirlərinin imkanlarını və mexanizmlərini öyrənmək olub. Beləliklə, ABŞ hərbçilərinin keçdiyi bu "təlimlər"in alt mahiyyətində nələrin yatdığı hər kəsə bəllidir. Paralel olaraq bu missiyada Aİ-yə aidiyyatı belə olmayan Kanadanın nümayəndələrinin nə işi var?

Demək ki, nə bu müşahidə missiyası, nə də ABŞ-ın Ermənistanda görüntü olaraq fərqli adlar altında keçdiyi "təlimlər" boş yerə həyata keçirilmir. Bu, Azərbaycana qarşı hazırlanması gözlənilən mühüm təxribatlardan xəbər verir. Aİ-nin qrupunun tez-tez şərti sərhədə yollanaraq "durbinlərini" Azərbaycana doğru istiqamətləndirməsi isə aparılan kəşfiyyat işlərindən xəbər verir.



### İranın "qırmızı xətti" tapdanır...

Bir maraqlı cəhət isə bu kəşfiyyat xarakterli fəaliyyətin həm də bölgə üçün təhdid yaratmasıdır. Nəzərə alsaq ki, ABŞ və Aİ Ermənistanda fəal iş aparır, deməkki, bunun nəticələri həm də başqa ölkələr üçün təlaş yaratmalıdır. Məsələn, dünənə qədər Ermənistanın ərazi bütövlüyünü özünün qırmızı xətti sayan rəsmi Tehran niyə bu məsələyə bu qədər səssiz yanaşır? Axı, təhdidin dərəcəsi ortadadır - Azərbaycanla yanaşı, digər bölgə dövlətləri də Ermənistanın belə bir birlik üzərindən fərqli xarici maraqları bölgəyə daşımasına qarşı bütün imkanlarını səfərbər etməlidir. Axı faktlar ortadadır - bir müddət öncə yayılan xəbərlərdə də vurğulanırdı ki, Zvartnotsa enən ABŞ təyyarələrindən birində İran ərazisindən buraxılan raketlərin və digər təyyarələrin trayektoriyalarını izləyən xüsusi alətlər yer alıb. Gətirilən qurğuların isə Ermənistanın İranla sərhədində yerləşdiriləcəyi bildirilirdi. Beləliklə, Ermənistanın əlaltından Qərbin anti-İran kampaniyasında da istifadə edilməsi faktı ortaya çıxır. Belə olan halda, İran niyə "qırmızı xəttin" tapdanması ilə bağlı bəyanat səsləndirmir?...

***P.İSMAYILOV***

# Gürcüstan - Aİ münasibətlərində dərinləşən çatlar

Kollektiv Qərb dünyanın müxtəlif coğrafiyalarında öz mövcudluğunu gücləndirmək siyasəti həyata keçirir. Təəssüf ki, bu siyasət heç də xoş məramа xidmət etmir. Qərb ayrı-ayrı coğrafiyalarda mövcudluğunu gücləndirməklə milli dövlətlərin iradəsinə qarşı çıxmaq və özünün ambissiyalarını diktə etmək, iqtisadi və siyasi dvidendlər qazanmaq niyyətindədir. Avropa İttifaqı- Gürcüstan münasibətlərini də məhz bu kontekstdə dəyərləndirmək mümkündür.

### Aİ Gürcüstana maliyyə yardımını dayandırır

Son vaxtlar ikitərəfli münasibətlərdə ciddi çatlar müşahidə olunur ki, bu da sırf Qərbin qərəzli yanaşmalarından, Gürcüstanın milli və dövlət maraqlarına məhəl qoymamasından qaynaqlanır. Məsələnin mahiyyəti ondan ibarətdir ki, kollektiv Qərb hələ M.Saakaşvilinin prezidentliyi dönəmindən Gürcüstan üzərinə əl qoyaraq bu ölkəni öz orbitinə çəkmək istəyir. Təbii ki, müxtəlif şirnikləndirici vədlərlə. Bu vədlər içərisində ölkəyə ayrılan maliyyə yardımlarını, qrantları və s. qeyd edə bilərik. Eyni zamanda, Gürcüstan Aİ-yə sıx inteqrasiya və sonda üzvlüklə həvəsləndirilirdi. İlk addımlardan biri kimi, Gürcüstan vətəndaşlarının Avropa İttifaqı məkanına vizasız daxil olmalarına "yaşıl işıq" yandırılmışdı. Paralel şəkildə, ayrı-ayrı Qərb təsisatlarından Gürcüstanın vətəndaş cəmiyyəti qurumlarına güclü dəstək gəlirdi...



İndi isə proseslər əks istiqamətdə gedir. Daha dəqiq ifadə etsək, ikitərəfli münasibətlərdə körpülər bir-bir yandırılır. Cari ilin yayından etibarən Aİ Gürcüstanın ittifaqa inteqrasiyası prosesini dayandırıb. Aİ-nin Tbilisidəki təmsilçisi bildirib ki, həmçinin Gürcüstan Müdafiə Nazirliyinə 30 milyon avro ayrılmasına da xitam verilib. "Ümid edirəm ki, oktyabrda Gürcüstanda keçiriləcək seçkilərdən sonra yeni qurulan hökumət, nə olursa olsun, yenidən Avropa İttifaqına inteqrasiya istiqamətində ciddi işə başlayacaq. İndiki Gürcüstan hökumətinin niyyəti Avropa İttifaqı liderlərinə aydın deyil. "Xarici təsirin şəffaflığı haqqında" qanun geriyə doğru bir addımdır və anti-Qərb, anti-Avropa ritorikası bəyan edilmiş Avropa İttifaqına daxil olmaq məqsədi ilə tamamilə uyğun gəlmir", - deyə Aİ nümayəndəsi vurğulayıb.

Münasibətlərdəki dərinləşən çatlarla bağlı daha bir xəbər elə bu günlərdə yayılıb. "Gürcüstan hökuməti Avropa İttifaqının 121 milyon avro məbləğində maliyyə yardımından məhrum olacaq. Buna Gürcüstan hökumətinin demokratik standartlardan uzaqlaşması səbəb olub". Bu barədə Aİ-nin Gürcüstandakı nümayəndəliyi məlumat yayıb.

Bildirilir ki, Avropa İttifaqı 2022, 2023 və 2024-cü illərdə Gürcüstan hökuməti üçün 121,3 milyon avro məbləğində illik vəsait ayırıb. Lakin bu vəsait 2024-cü ildə dayandırılacaq. Buna səbəb Gürcüstan hökumətinin demokratik standartlardan uzaqlaşması, xüsusən də vətəndaş cəmiyyətinə qarşı yönəlmiş "Xarici təsirin şəffaflığı haqqında" qanunun qəbulu olub.

"Gürcüstan təkcə bu yardımdan deyil, digər yardımlardan da məhrum edilə bilər", - deyə məlumatda bildirilir.

### Qərbi narazı salan qanunun gerçək mahiyyəti

Hakim "Gürcü Arzusu-Demokratik Gürcüstan" partiyasının təqdim etdiyi layihə əsasında parlamentdə cari ildə "Xarici təsirin şəffaflığı haqqında" qanunun qəbul olunması sırf milli maraqlara yaranan təhdidlərin qarşısını almaq zərurəti ilə bağlıdır. Qanuna əsasən, illik gəlirinin 20 faizdən çoxunu xarici dövlətlərdən, beynəlxalq təşkilatlardan, Gürcüstan vətəndaşı olmayan qurum və şəxslərdən əldə edən və dövlət tərəfindən təsis edilməyən media orqanları və QHT-lər Gürcüstandakı "xarici gücün maraqlarını güdən təşkilat" kimi reyestrdən keçməli olacaqlar. Verilən izahata görə, xarici dövlətlərin maraqlarını güdən təşkilat anlayışını təqdim etmək və müvafiq olaraq bu qurumların qeydiyyatına başlamaq tələb olunur. Həmçinin qeyd edilir ki, qanunvericilik aktı yalnız məlumat məqsədinə xidmət edir və xarici maraqların dirijoru kimi tanınacaq təşkilatların fəaliyyətini məhdudlaşdırmayacaq.

Reyestrdən keçməyənləri isə maliyyə sanksiyaları gözləyir. Lakin onun normaları fiziki şəxslərə şamil edilməyəcək. Gəlirlərinin 20 faizdən çoxu xaricdən gələn qeyri-kommersiya hüquqi şəxslər və mətbuat orqanları qanunun təsir dairəsində olacaqlar. Belə təşkilatlar hər ilin yanvar ayında Ədliyyə Nazirliyinə xərcləri haqqında bəyannamə təqdim etməlidirlər. Bu öhdəliyi yerinə yetirməsələr, 25 min lari (təxminən 9,3 min dollar) məbləğində cərimələnəcəklər. Cərimədən sonra belə bəyannamə təqdim edilməzsə, bəyannamənin vaxtı keçmiş hər ay üçün 20 min lari (təxminən 7,4 min dollar) tutulacaq.

Gürcüstan hakimiyyəti verdiyi izahatlarda bildirir ki, ölkənin milli maraqları bu qanunun qəbul olunmasını zəruri edib. Rəsmi Tbilisi mövcud vəziyyətin Gürcüstanın milli təhlükəsizliyi - hakimiyyətin "qırmızı xətti" üçün təhdidlər yaratdığını bildirir. Hakim çoxluq o qənaətdədir ki, ölkənin milli maraqlarına nüfuz edilməsinin qarşısı qəti şəkildə alınmalıdır və parlamentdə qəbul olunan qanun da bu məqsədə xidmət edir. Hazırda kiçik Gürcüstanda xaricidən qrantlar alan qeyri-hökumət təşkilatlarının sayı əhəmiyyətli dərəcədə artaraq 10 mini ötüb. Təbii ki, həmin QHT-lər aldıqları vəsaitlərin əvəzini Qərb dairələrindən gələn sifarişləri yerinə yetirməklə ödəməlidirlər. Bu sifarişlər isə bir qayda olaraq Gürcüstanın milli və dövlət maraqları ilə ziddiyyət təşkil edir. Belə olan halda isə hakimiyyət bu təsirləri qanunvericilik qaydasında, hüquq müstəvisində neytrallaşdırmaqda qərarlıdır ki, bu da indiyədək Gürcüstanı özləri üçün açıq poliqon sayan Qərb dairələrini qane etmir.

***MÜBARİZ***

# O, əvvəlcə keşişə zəng edib...

Dünyanın supergüc dövləti olan Amerika Birləşmiş Ştatları (ABŞ) növbəti prezident seçkiləri ərəfəsindədir. Noyabrın 5-də keçiriləcək seçkilər yaxınlaşdıqca ölkədə seçki ajiotajı daha da qızışır. Marafonda Respublikaçılar Partiyasını sabiq prezident Donald Tramp, Demokratlar Partiyasını isə C.Baydenin prezidentliyi dönəmində vitse-prezident vəzifəsində çalışan Kamala Harris təmsil edirlər.

Qarşıdakı dövrdə Ağ Evin növbəti sahibinin kim olacağı təkcə ölkə daxilində deyil, bütün dünyada böyük maraqla izlənilir. Bu da təsadüfi deyil. Etiraf etmək lazımdır ki, qlobal siyasətin istiqaməti böyük dərəcədə bu ölkənin mövqeyindən asılıdır. Bu günlərdə D.Trampla müqayisədə seçki marafonuna bir qədər gec qoşulan K.Harris seçkilərin qalibi olacağı təqdirdə gələcək fəaliyyəti barədə danışıb.

## Harris Baydendən fərqlənməyəcək



## Harrisin məyusedici açıqlaması

Əvvəlcə güman edilirdi ki, Bayden 2024-cü il prezident seçkilərində yenidən Demokratlar Partiyasının namizədi qismində çıxış edəcək. Əslində, o, marafona başlamışdı da. Ancaq iyun ayında baş tutan namizədlərin ilk debatı Bayden üçün pis başlanğıc oldu. Seçkiöncəsi CNN-in Atlantadakı baş qərargahında baş tutan debatda ölkənin 81 yaşlı hazırkı prezidenti Co Baydenlə 78 yaşlı sabiq prezident Donald Tramp üz-üzə gəldilər. Debat boyunca Baydenin tez-tez çarəsiz görkəm alması, suallara mükəmməl cavab verə bilməməsi, zəif arqumentlər gətirməsi, fikirlərinin ardıcıl olmaması və nəhayət, sonda səhhəti ilə bağlı yaşanan kruyoz hadisə onun seçki marafonundan geri çəkilməsi ilə nəticələndi. Beləliklə, iyulun 21-də Bayden partiyanın maraqlarını əsas gətirərək, namizədliyini geri götürdüyünü bəyan etdi. Bayden Kamala Harrisi prezidentlik yarışında varisi kimi göstərib. İlk həftəsində Harris seçki kampaniyası üçün 200 milyon dollar toplayıb, bunun 66%-i yeni donorların ianələri idi. Tramp yeni namizədin üzə çıxmasını müəyyən mənada sevinclə qarşıladı. O, seçkidə Harrisə qalib gəlməyin Baydendən daha asan olacağına əmin olduğunu bildirirdi. Lakin Baydenin prezidentlik yarışından çəkildiyi elan edildikdən cəmi bir həftə sonra, Harris rəy sorğularında Trampla, demək olar ki, bərabər səviyyədə dəstək qazanmağa başladı və hətta rəqibini müəyyən faizlə üstələdi.

Kamala Harris Bayden administrasiyasında, necə deyərlər, parlayan bir fiqur kimi diqqət çəkməyib. O, hansısa bir təşəbbüs göstərməyən icraçı kimi həmişə kölgədə qalıb. Bəs o, seçkilərin qalibi olacağı təqdirdə ABŞ-nin siyasətini hansısa yöndə dəyişə biləcəkmi? Ümumiyyətlə, növbəti mərhələdə ölkədə nə kimi dəyişikliklər gözlənilir? Bu qəbildən olan suallara K.Harrisin özü cavab verib. Onun cavabı isə ABŞ siyasətində yenilik gözləyənləri məyus edib. "Baydenin yerinə prezident olsam, ondan fərqli heç nə etmərəm". Bu barədə Kamala Harris ABŞ-də yayımlanan "The View" verilişində deyib. "Mən müəyyən təsirə malik qərarların əksəriyyətində iştirak etmişəm", - deyə o bildirib.

Harris ABŞ lideri Cozef Baydenin iyulda prezident seçkiləri marafonundan çəkilməsini öyrəndikdən sonra ilk işinin keşişə zəng etmək olduğunu deyib. "Mənə Allahla danışmaq və dua etmək lazım idi",- deyə Harris əlavə edib.

## Baydenin 4 ilində dünya alova büründü

K.Harrisin Bayden siyasətinə sadiq qalacağını bildirməsi ölkədə və dünyada böyük məyusluq yaradıb. Belə məyusluq isə ilk növbədə son beş ildə Ağ Evin C.Baydenin uğursuz daxili və xarici siyasət aparması ilə bağlıdır. Donald Tramp C.Baydeni ABŞ tarixinin ən pis və ən koorupsioner lideri adlandırıb. Bundan əvvəl isə ABŞ Konqresinin Nümayəndələr Palatası Baydenin impiçmenti ilə bağlı əlavə təhqiqat aparılmasını tələb edən qətnaməni təsdiqləyib.

Siyasi analitiklər C.Baydenin xarici siyasətinin beynəlxalq təhlükəsizliyə hər hansı bir töhfə vermədiyi qənaətini ifadə edirlər. "Prezident Cozef Bayden ABŞ-nin qlobal liderliyini nəinki bərpa edə bilmədi, əksinə, dünyanın təhlükəsizlik sistemini və sülhü pozaraq özündən sonra ağır irs saxlamaqdadır". Bu fikir Böyük Britaniyada nəşr olunan "The Telegraph" qəzetinin analitiki Kon Kaflinin (Con Coughlin) "Baydenin 4 ilində dünya alova büründü" (Four years of Biden have left the world in flames) sərlövhəli məqaləsində yer alıb. Müəllif qeyd edir ki, Əfqanıstanda, Yaxın Şərqdə, Ukraynada buraxılan səhvlər ümumi təhlükəsizliyə zərbə vurub. C.Baydenin prezidentlik müddətinin başa çatması ABŞ-nin Yaxın Şərqə əlavə hərbi hissələr göndərməsi ilə müşayiət olunur. Prezidentin Qəzza bölgəsində atəşkəs rejimi yaratmaq cəhdləri uğursuzluqla nəticələndi. Onun səmərəsiz fəaliyyəti dünyamiqyaslı lider olmasına imkan vermədi.

İsrail ilə "Hizbullah" arasında müharibənin davam etdiyi bir zamanda C.Bayden qəti tədbirlər görmək əvəzinə, İranla nüvə danışıqlarını davam etdirmək qərarına gəldi. Prezidentin bu yanlış addımı müharibənin qızışmasına və hələ nə ilə nəticələnəcəyi bəlli olmayan vəziyyətin yaranmasına səbəb oldu. Bununla yanaşı, ABŞ-nin tarixi müttəfiqləri olan İsrail və Səudiyyə Ərəbistanı ilə münasibətləri də korlandı, bu dövlətlər Rusiya və Çin ilə yaxın əməkdaşlığa başladılar. Özünün buraxdığı səhvlər ucbatından C.Bayden Ağ Evi Qəzza bölgəsində sülh yaratmadan tərk edəcək.

## Daxili siyasətdə uğursuzluq

Prezidentliyə namizəd K.Harrisin Baydenin siyasətinə aludə olmasına rəğmən, aparılan daxili siyasətdə də uğursuzluqlar kifayət qədər çoxdur. Baydenin prezidentliyi dönəmində ölkə bir neçə dəfə defolt təhlükəsi ilə üzləşib. Dünyanın ən böyük iqtisadiyyatı olan ABŞ-də 2021-ci ilin payızında ölkə tarixində ilk real defolt riski yaşandı. Həmin dövrdə Konqresin Nümayəndələr Palatası hökumətin borclanmasına dair həddin götürülməsi üzrə qanun layihəsinin lehinə səs verib (219-un 212-nə səs çoxluğu ilə). Bu və digər tədbirlər ABŞ-nin öz maliyyə öhdəliklərini vaxtında yerinə yetirə bilməsi üçün 2022-ci ilin dekabrına qədər hər hansı yuxarı həddi olmadan əlavə borc cəlb etməsinə imkan yaradıb.

ABŞ-də ötən ilin yayında gözlənilən növbəti defolt riski xarici borc öhdəliyi limitinin keçilməsi ilə bağlı idi. Ölkədə xarici borc öhdəliyi limitinin 2023-cü ilin yanvarında keçildiyi bildirilirdi. Artıq ölkənin xarici borcu 31,4 milyard dollardan çoxdur ki, bu da "qırmızı xətt" sayılır. Həmçinin dövlət büdcəsinin kəsiri də artmaqda davam edir. Büdcə kəsirinin 2024-cü ildən 2033-cü ilə qədər ildə təxminən 2 trilyon dollar olacağı proqnozlaşdırılır. Bildirilir ki, kəsir 2033-cü ilə qədər 2,851 trilyon dollara və ya ÜDM-in 7,3%-nə çatacaq.

Ekspertlər ABŞ-nin xarici borcunun artmasında Ukraynaya dəstəyin az rol oynamadığı versiyasını əsaslandırırlar. Ukraynaya dəstək fonunda Pentaqonun xərcləri artır və beləliklə də, ölkə əlavə borclanmaq reallığı ilə üz-üzə qalır. Qeyd edək ki, ABŞ indiyədək Ukrayna büdcəsini dəstəkləmək məqsədilə böyük həcmlərdə vəsaitlər ayırıb. Ukrayna həmçinin ABŞ-dən genişmiqyaslı hərbi dəstək alır. Bundan başqa, Bayden administrasiyası Yaxın Şərqdə alovlanan müharibələrə də böyük həcmlərdə maliyyə ayırır və hərbi-texniki dəstək göstərir.

Perspektivlə bağlı proqnozlar da kədərlidir. ABŞ Mərkəzi Bankı (FED) 2024-cü il üzrə ölkənin ümumi daxili məhsulunun artımı ilə bağlı proqnozunu 2,1%-dən 2%-ə endirib. Bu barədə Amerika tənzimləyicisinin saytında dərc olunan ortamüddətli proqnozda deyilir. 2025-2027-ci illər üçün ölkədə iqtisadi artım proqnozları 2% səviyyəsində saxlanılıb.

Ölkədə inflyasiyanın səviyyəsi də yüksək olaraq qalır. Həmçinin işsizlik proqnozu 2024-cü ildə 4,0%-dən 4,4%-ə, 2025-ci ildə 4,2%-dən 4,4%-ə, 2026-cı ildə 4,1%-dən 4,3%-ə qədər artırılıb. 2027-ci ildə 4,2% səviyyəsində işsizlik proqnozlaşdırılır.

Bütün bu kimi faktlar Baydenin apardığı siyasətdə ciddi korreksiyalara ehtiyac olduğu zərurətini ortaya qoyur.Harrisin açıqlamasından belə məlum olur ki, o, prezident seçiləcəyi təqdirdə ABŞ-də zərurətə çevrilən dəyişiklər gözləmək əbəsdir...

*Mübariz FEYIZLI*

# Qərbin milli dövlətlərə təzyiq aləti - insan haqları

**Ayrı-ayrı Avropa ölkələri və təsisatları demokratiya və insan haqlarını özlərinin təməl prinsipləri elan ediblər. Ancaq reallıq, Qərb dairələrindən gələn çağırışlar, Avropa Şurası Parlament Assambleyasının (AŞPA), "Amnesty İnternational", "Freedon House", "Human Rights Watch" kimi təşkilatların davranışları ortaya fərqli mənzərə qoyur. Görünən odur ki, indi Avropada məzmunca özündə selektiv yanaşmaları ehtiva edən yeni standartlar müəyyənləşdirilib. Qeyd olunan demokratiya və insan haqları isə "qoca qitə" üçün artıq bir keçmişdir və bu dəyərlərə ancaq Qərb dairələrinin yenə də ikili standartlara istinad etməklə lazım bildikləri xüsusi məqamlarda müraciət olunur.**

## Ermənistana və separatçılara hədsiz qayğıkeşlik

Bəli, tam qətiyyətlə deyə bilərik ki, bu gün Qərbdə demokratiya və insan haqları bir istismar predmetinə çevrilib və onlardan lazım gələndə milli dövlətlərə qarşı təzyiq aləti kimi istifadə olunur. İzlənilən proseslərdən o qənaət hasil olur ki, Qərb dairələri müstəqillik və suverenlik prinsiplərindən çıxış edən, milli maraqlarının təəssübünü çəkən dövlətlərin mövcudluğunu qəbul etmək istəmirlər. Onlara sözəbaxan, itaətkar dövlətlər lazımdır. Hansı hallarda ki, milli dövlətlər onların qoyduqları qaydalardan, cızdıqları planlardan kənara çıxırlar, dərhal "insan haqları" dəyənəyi işə salınır. Bunu Cənubi Qafqazın üç ölkəsinə münasibətdə aydın şəkildə görmək mümkündür.

Bu gün Ermənistan Qərbin ayrı-ayrı dövlətləri və təsisatları tərəfindən güclü şəkildə dəstəklənir. Artıq Avropa İttifaqının (Aİ) "mülki" adlandırılan, əslində isə hərbi missiyası Ermənistanda "lövbər" salıb və buradan qonşu dövlətlərə qarşı kəşfiyyat fəaliyyətləri həyata keçirir. Amerika Birləşmiş Ştatları, Fransa, Aİ-nin "Sülh fondu" adlandırılan qurumu bu ölkəyə öldürücü silahlar tədarük edir, böyük həcmlərdə maliyyə vəsaitləri ayırırlar. Avropa Şurası Parlament Assambleyası, Fransa parlament, ABŞ konqresi isə Ermənistana siyasi-ideoloji dəstək göstərir. Ermənistan işğalçı dövlətdir, otuz il ərzində Azərbaycana qarşı aqressiya siyasəti həyata keçirib. İndi müharibə başa çatandan sonra işğalçı dövlətin yenidən silahlandırılması hansı məntiqə sığır?

Azərbaycanın həyata keçirdiyi uğurlu antiterror tədbirlərindən sonra Qərb dairələri sanki yuxudan oyanıblar və insan haqları mövzusu onların yadına düşüb. Bəli, bu gün ABŞ konqresi və dövlət departamenti, Fransanın Milli Assambleyası, Yelisey Sarayı Qarabağdan könüllü şəkildə köç edən ermənilərin hüquqlarının "müdafiəsi" uğrunda sanki yarışa çıxıblar. Xorda Avropa Şurası Parlament Assambleyasının səsi də çox ucadan eşidilir. Onlar bir ağızdan Qarabağdan çıxan ermənilərin "pozulmuş" hüquqlarından danışır, separatçı rejimin Bakıda dəmir barmaqlıqlar arxasında cəzalarını gözləyən liderlərinə azadlıq istəyirlər. Sual olunur: Qeyd olunan dairələr niyə Qarabağdan əmin-arxayın çıxan, hətta mal-heyvan sürülərini belə özləri ilə aparan ermənilərin hüquqlarının "pozulmasına" görə bu qədər hay-küy saldıqları halda, doğma yurd-yuvalarından zorla qovulan bir milyondan artıq azərbaycanlının taleyinə biganə yanaşıblar? Görəsən, Avropa İttifaqının "Sülh fondu", AŞPA, "Amnesty İnternational", "Freedon House" , "Human Rights Watch" kimi təşkilatlar, eləcə də Fransanın və ABŞ-nin müvafiq qurumları, yüksək səviyyəli rəsmiləri belə ayrıcı xətlər çəkmələrinin məsuliyyətini dərk edirlərmi? Budurmu Avropanın ədaləti və insan haqları təəssübkeşliyi? Axı insanlar milli-dini kimliyindən asılı olmayaraq hər yerdə insandırlar və onlara münasibətdə eyni yanaşmalar göstərilməlidir.

İşğalçı Ermənistanın, erməni separatçı tör-töküntülərinin dəstəklənməsi fonunda Gürcüstanın hədəfə alınması kəskin fərq yaradan amil kimi diqqət çəkir. Yenə də biz Qərb tərəfindən demokratiya və insan haqları anlayışlarına selektiv yanaşmanın şahidi oluruq. Zamanında Qərb Gürcüstana da mehriban münasibət bəsləyərək bu ölkənin Avropa İttifaqına gedən yolunda "yaşıl işıq" yandırılacağı vədi verirdi. Eyni zamanda, ABŞ də Gürcüstana maliyyə tranşları ayırır, texniki dəstəyi genişləndirirdi. İndi məlum olur ki, bu mehribançılığın təməlində də siyasi məqsədlər dayanıb. Qərb Gürcüstandan Rusiyaya qarşı bir dayaq məntəqəsi kimi istifadə etmək məqsədi güdüb. Bu ölkədə "Xarici təsirin şəffaflığı haqqında" qanun qəbul edildikdən sonra isə rəs-




## Gürcüstan "qara sıyahıda"

mi Tbilisi Avropanın gerçək simasını görmək məcburiyyətində qalıb. Gürcüstan hakimiyyəti həmin qanunu qəbul etməklə ilk növbədə milli maraqlarından çıxış edib. Bu isə Qərb dairələrinin xoşuna gəlmir. Elə bu səbəbdən də rəsmi Tbilisinin adı "qara siyahıya" düşüb. Bu gün Gürcüstana kollektiv Qərbdən kollektiv hücumlar gəlməkdədir. ABŞ ölkəni yardımları dayandırmaqla, sanksiyalarla, Aİ qapılarını bağlamaqla hədələyir. Təkcə jurnalist təşkilatları son bir ay ərzində 6 müxtəlif mövzu üzrə rəsmi Tbilisini qınayan açıqlama yayıblar. Digər təyinatlı təşkilatlar, o cümlədən "Amnesty İnternational", "Freedon House" , "Human Rights Watch" da sinxron davranaraq, son bir ildə Gürcüstanı hədəf ölkə seçiblər. Total hücumların təşkilində məqsəd isə Gürcüstanın Qərbin təsir dairəsindən uzaqlaşmasının qarşısını almaqdır.

Məlum dairələr Gürcüstandan istədiklərini almaqdan ötrü yeni mexanizmlər də icad edirlər. Məsələn, Avropa Şurasının nəzdində fəaliyyət göstərən "Jurnalistlərin Təhlükəsizliyi Platformasını" idarə edən "Tərəfdaş təşkilatlar"dan ibarət olmaqla, əlahiddə koalisiya formalaşdırlıb. "Gürcüstan üzrə xüsusi Faktaraşdırıcı missiya" adlandırılan bu koalisiya ilkin mərhələdə 8 beynəlxalq jurnalist təşkilatının adından təşkil edilib. Rəsmi məramnaməsində göstərilir ki, məqsədi "Gürcüstanda media və ifadə azadlığı üzrə öhdəliklərin yerinə yetirilməsinin vəziyyəti barədə məlumat toplamaqdır". Gerçəklik isə budur ki, Gürcüstanı "söz və ifadə azadlığını pozduğuna görə" ittiham edən hesabatlar hazırlamaq yönündə təlimatlandırılıblar. Oktyabrın 3-də "Faktaraşdırıcı missiya" adından yayımlanmış hesabatdan belə görünür ki, koalisiya dərin araşdırma aparmayıb. Qarşısına çıxan istənilən faktın astar üzünü təqdim edib və bunu Gürcüstan hakimiyyətinin əleyhinə olan arqument kimi sənədləşdirib. Buna aid bir nümunə gətirək. Sentyabrın 15-də qeydə alınan fakt üzrə Gürcüstanı ona görə pisləyiblər ki, sürgündə olan Belarus jurnalisti Andrey Mialeşkanın Tbilisiyə gəlişinə mane olunub. Sentyabrın 17-də isə erməni "jurnalist" Arsen Xaratyanın Gürcüstana girişinə icazə verilməyib. Dövlət Sərhəd Xidməti insidenti hər iki şəxsin sənədlərində aşkarlanan uyğunsuzluqla izah edib. Missiya isə müvafiq dövlət qurumlarının məlumatına məhəl qoymadan "faktı" "jurnalist hüquqlarının pozulması" kimi fiksasiya edir. Halbuki, "Faktaraşdırıcı missiya" burada başqa, daha mühüm məqamlara diqqət yetirməli idi. Məsələn, Arsen Xaratyanın jurnalist, yoxsa siyasətçi olması faktı araşdırma mövzusu ola bilərdi. Çünki o, "Aliq Media"nın təsisçisi olmaqdan daha çox, Nikol Paşinyanın müşaviri kimi tanınır. Yəni siyasi fiqurdur və adı KTMT-nin sabiq baş katibi Yuri Xaçaturovun həbsi, sonradan zaminə buraxılması məsələsində ikibaşlı oyun qurmuş şəxs kimi hallanır. Bu məsələdə tutduğu anlaşmaz mövqeyə görə vəzifəsindən uzaqlaşdırılıb. Ermənistandan ayrılaraq Tbilisiyə üz tutub. Ermənistan mediasında bununla bağlı kifayət qədər məlumatlar mövcuddur. "Faktaraşdırıcı missiya"nın üzvləri bu məqamın üzərindən sükutla keçirlər. Hansı ki, özləri uzun illər ərzində dünyaya təlqin ediblər ki, "siyasətə bulaşanda, jurnalistika bitir"; "Təbliğatçı mövqe tutan subyekt KİV qurumu olmaq statusunu itirir, siyasi bülletenə çevrilir". Amma AŞPA yanındakı "Faktaraşdırıcı missiya"nın tərkibinə daxil olan 8 beynəlxalq jurnalist təşkilatının heç biri Arsen Xaratyanın siyasi kimliyinə diqqət yetirmir və "Aliq Media"nın missiyasını nəzərə almır. Çünki, indiki halda onların hədəfi Ermənistan yox, Gürcüstandır.

Gürcüstanda sentyabr ayının 17-də qəbul olunan başqa bir qanun da bu ölkəni Qərb dairələrinin qəzəbinə tuş edib. Söhbət "Ailə dəyərləri və yetkinlik yaşına çatmayanların müdafiəsi" adlı qanundan gedir. Bu qanunu qəbul etməklə Gürcüstan hakimiyyəti cəmiyyəti, gürcü xalqının milli-mənəvi dəyərlərini qorumaq istəyir. "Faktaraşdırıcı missiya" isə "Ailə dəyərləri və yetkinlik yaşına çatmayanların müdafiəsi" adlı qanuna münasibətdə də eyni kontekstdən çıxış edir. Onlar hesab edirlər ki, bu qanun "mətbuat və ifadə azadlığına ziddir". Arqumentləri budur ki, yeni qanunvericilik ölkədə "LGBT+ mövzusunda sərbəst reportaj hazırlamaq imkanlarını məhdudlaşdırır". Geniş şərhə ehtiyac yoxdur. Ailə dəyərlərini itirən Qərbin Gürcüstanın öz ənənələrinə və dəyərlərinə sahib çıxmaq istəyinə "mız" qoyması həqiqətən Avropanın özünün tragikomediyasıdır.

Bütövlükdə, son bir il ərzində Gürcüstana qarşı sərgilənən münasibət onu sübut edir ki, adları çəkilən təşkilatların "müstəqilliyi", "prinsipiallığı" barədə deyilənlər blefdən başqa bir şey deyil. "İnsan haqları", "hüquq müdafiəçiliyi", "söz və ifadə azadlığı", "vətəndaş cəmiyyəti institutları" anlayışları Qərbdə özünün klassik mənasını itirib. Bu məfhumlar ABŞ və Qərbi Avropa dövlətlərinin əlində milli dövlətlərə təzyiq alətinə çevrilib. Bu gün "Amnesty İnternational", "Freedon House" , "Human Rights Watch", "Sərhədsiz Repartyorlar" kimi təşkilatların Gürcüstana qarşı münasibəti ABŞ Dövlət Departamentinin, Avropa İttifaqı Şurasının, Yelisey Sarayının siyasi qərarları ilə sinxronluq təşkil edirsə, hansı "müstəqillik"dən, "hüquq müdafiəçili"yindən danışmaq olar?

## Azərbaycana hücumun yeni dalğası

Azərbaycan da "insan haqları" mövzusunda Qərbin tez-tez əsassız hücumlarına məruz qalan ölkələr sırasında yer alır. AŞPA-nın, Fransa parlamentinin məlum canfəşanlıqlarının ardından hazırda Avropa qaragüruhunun ölkəmizə qarşı yeni hücum dalğası başlayıb. Son bir ay ərzində baş verənlər bunun təsdiqidir. Bu günlərdə Avropa Şurası Parlament Assambleyasının payız sessiyası keçirilən zaman, Azərbaycanın özünün iştirakı təmin edilmədən, "Azərbaycanda insan haqları üzrə" dinləmələr keçirilib. Avropa Şurası Monitorinq komitəsinin Azərbaycan üzrə həmməruzəçisi Liz Kristofferson uzun-uzadı danışıb, şablon mövzulara toxunub, sonda isə əsl mətləbin üstünə gəlib. O, Bakıda həbsdə olan "Qarabağ liderlərinin" işgəncəyə məruz qaldığını, həmçinin "Qarabağda ermənilərə qarşı etnik təmizləmə tətbiq edildiyini" dilə gətirib. Xanım Kristoffersonun iddiaları o qədər absurddur ki, şərh verməyə lüzum qalmır. Amma o, hansısa məntiqlə "dəstək qazanır".

Digər belə bir qərəzçilik nümunəsi ABŞ-də sərgilənib. Belə ki, 58 nəfər konqresmen və senator oktyabrın 3-də ABŞ-nin dövlət katibi Antoni Blinkenə məktub yazaraq, COP29 sammiti ərəfəsində Azərbaycana "insan hüquqları ilə bağlı" təzyiq göstərməyə çağırıblar. 10 senator, 48 konqresmen istəyir ki, Blinken "Azərbaycanda siyasi məhbusların azad edilməsinə nail olmaq üçün məqsədli tədbirlər görsün". Onlar da Bakıda saxlanılan "separatçı liderlərin" azadlığını istəyirlər. Müraciətlərində həm də vurğulanır ki, "Azərbaycanın Ermənistana qarşı basqılarını durdursun".

Kim kimə basqı edir, görəsən? Azərbaycan müharibənin qalib tərəfi olmasına rəğmən, qarşı tərəfə hər hansı bir şərt irəli sürmədən, sülh təşəbbüslərindən çıxış edir. Sülhü manipulyasiya edən məhz məğlub Ermənistandır və burada ABŞ-nin də "töhfələri" böyükdür...

*Mübariz FEYİZLİ*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**



# Canlarını oda atanlar...



## Yanğınla mübarizə aparanların peşə bayramıdır

*Yeganə BAYRAMOVA*

Yanğınsöndürənlərimiz çətin sınaqlarda dəfələrlə peşəkarlıqlarını və cəsarətlərini ortaya qoyublar. Onlar baş verə biləcək fövqəladə hadisələrin vaxtında aşkarlanması, qarşısının alınması və nəticələrinin aradan qaldırılması üçün son dərəcədə mühüm peşəkarlıq nümayiş etdirirlər. Bu gün yanğın təhlükəsizliyi orqanları ölkəmizdə əhalinin təhlükəsiz yaşamasının, iş və istirahətinin təmin olunması üçün qarşıya qoyulmuş vəzifələrin öhdəsindən layiqincə gəlir. Uzun illər ərzində bu sahənin maddi-texniki bazasının gücləndirilməsi, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlər görülüb.

Ölkəmizdə Yanğından Mühafizə Xidməti Azərbaycan Xalq Cümhuriyyəti dövründə, daha dəqiq desək, 1918-ci ildə yaradılıb. 2002-ci il oktyabr ayının 5-də isə Heydər Əliyev oktyabr ayının 10-nun "Yanğınsöndürənlərin peşə bayramı günü" kimi qeyd olunması haqqında Sərəncam imzalayıb. Həmin tarixdən etibarən hər il oktyabrın 10-u yanğınsöndürənlərin peşə bayramı kimi qeyd olunur.

Ulu öndər Azərbaycana rəhbərliyi dövründə yanğın təhlükəsizliyi orqanlarının inkişafını daim diqqətdə saxlayıb, bu sahədəki problemlər öz həllini tapıb. "Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır", - deyən Ulu Öndər ikinci dəfə ali hakimiyyətə qayıdışından sonra isə yanğın təhlükəsizliyi sisteminin davamlı inkişafını təmin edən ardıcıl tədbirlər görülüb. 1997-ci ildə "Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun qəbul olunması ilə yanğından mühafizə sisteminin təşkilinin hüquqi əsasları müəyyənləşdirilib. Görülən məqsədyönlü tədbirlər nəticəsində yanğından mühafizə sistemi təkmilləşdirilib, şəxsi heyətin sosial-məişət şəraiti yaxşılaşıb, təminat və təchizat məsələləri öz həllini tapıb.



Bu gün də yanğın təhlükəsizliyi orqanlarında peşə hazırlığının artırılması üzrə beynəlxalq təcrübənin öyrənilməsi, texniki təchizat və təminatın müasir standartlara uyğunlaşdırılması, həmçinin ixtisaslı kadrların hazırlanması istiqamətində tədbirlərin həyata keçirilməsi diqqətdə saxlanılır. Müasir texnologiyaların tətbiqi iş prosesinin təkmilləşdirilməsinə, baş verən yanğınların söndürülməsinin və bununla bağlı təxirəsalınmaz xilasetmə işlərinin müasir dövrün tələblərinə uyğun şəkildə həyata keçirilməsinə şərait yaradıb.

Fövqəladə Hallar Nazirliyinin (FHN) yanğınsöndürənləri Azərbaycan Prezidentinin tapşırığı ilə bir neçə ölkəyə humanitar yardımlar edib. Bundan başqa, FHN-in xilasetmə dəstələri İsraildə, Gürcüstanda və Türkiyədə meşə yanğınlarının söndürülməsində fəal iştirak ediblər. Nazirliyin şəxsi heyətinin peşəkarlığının və digər ölkələrdə baş verən fövqəladə hadisələrin qarşısının alınmasında göstərdiyi yüksək çeviklik və fədakarlığın ən bariz nümunəsi qardaş Türkiyədə baş vermiş meşə yanğınlarının söndürülməsi oldu. Qardaş ölkədə təbii fəlakətlərin aradan qaldırılması məqsədilə Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Türkiyəyə gedən FHN yanğınsöndürücüləri əsl qardaşlıq örnəyi nümayiş etdiriblər.

Bütün bunlar FHN-in fədakarlıq və peşəkarlıq örnəkləri sərgiləyən yanğınsöndürənlərinin ölkə rəhbərliyinin qarşıya qoyduğu vəzifələri daha yüksək keyfiyyətlə, operativ və sədaqətlə yerinə yetirməyə hər an hazır və qadir olduğunu deməyə əsas verir. Onlar həmişə olduğu kimi, bu gün də Prezidentin qarşıya qoyduğu vəzifələri daha yüksək keyfiyyətlə və operativ formada yerinə yetirirlər.

# Əsəblərinizi qoruyun!

## Ümumdünya Psixi Sağlamlıq Günüdür



*Yeganə BAYRAMOVA*

Ətrafımızda bəzən əsəbini kontrol edə bilməyən, səbrsizlik göstərən, həyatdan zövq ala bilməyən, daim məyus halda olan, başqalarına qarşı alçaldıcı davranışlar göstərən insanlar görürük. İlk baxışdan belə insanların psixi problemlərinin olduğunu sezmək mümkündür. Dünya psixi sağlamlıq statistikasına görə, 2016-cı ildə dünyada 1.1 milyard insanın psixi pozuntuya sahib olduğu, bu problemin hər 6 şəxsdən birində rastlandığı bildirilib. Ən çox rastlanan psixi pozuntunun təşviş (4%) və depressiya (4%) olduğu qeyd edilir.

Məlumdur ki, fiziki sağlamlığın pozulduğunu bədənin verdiyi ağrı kimi siqnallarla müşahidə etmək mümkündür. Lakin psixi sağlamlıq normaları bilinmədiyi üçün onun fərqində olmaq daha çox vaxt ala bilir. Günümüzdə həyat çətinlikləri nəzərə alınarsa, fiziki sağlamlıq qədər psixi sağlamlığın da sürətlə pozulduğunu müşahidə edirik...

**Dünyada 350 milyondan çox insan...**

Statistik göstəricilərə görə, xəstəliklərin qlobal yükünü daha da ağırlaşdıran depressiyadan dünyada bütün yaş qrupları üzrə 350 milyondan artıq insan əziyyət çəkir. Depressiyadan xilas olmanın məlum effektiv müalicə növlərinin mövcudluğuna baxmayaraq, əksər ölkələrdə müalicə isə əlçatan deyil. Bəzi ölkələrdə isə belə müalicəni ehtiyacı olanların 10%-dən azı alır.

Psixi sağlamlığın qorunması geniş spektrli fəaliyyəti əhatə edir. Bu fəaliyyət birbaşa və ya dolayı yolla fiziki, mənəvi və sosial əmin-amanlığı təmin edir. Buraya sağlamlığın möhkəmləndirilməsi, psixi pozğunluğun profilaktikası, eləcə də psixi pozğunluqdan əziyyət çəkən insanların müalicəsi və reabilitasiyası aiddir.

Müharibələr və digər fəlakətlər psixi sağlamlığa və psixoloji rifaha ciddi təsir göstərir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) hesablamalarına görə, fövqəladə hallarda psixi pozuntu göstəriciləri, bir qayda olaraq, 2 dəfə artır. Psixi pozuntular infeksion və qeyri-infeksion xəstəliklərin inkişafının risk amillərinə aid edilir.

**"Stress Səviyyələrini Azaltmaq üçün Məsləhətlər"**

Yeri gəlmişkən, hər il oktyabrın 10-u bütün dünyada Ümumdünya Psixi Sağlamlıq Günü kimi qeyd edilir. Sağlam olmaq insan hüquqlarından biridir. Məhz Ümumdünya Psixi Sağlamlıq Günündə psixi pozğunluqdan əziyyət çəkənlərin lazımi müalicə ilə təmin olunmasına və sağlam yaşamağa çağırış ifadə edilir. Əlamətdar günün vəzifəsi psixi sağlamlıq probleminə yanaşmada dünya əhalisinin məlumatlılıq səviyyəsini yüksəltməkdir. Bu Gün psixi sağlamlığın möhkəmləndirilməsi istiqamətində qlobal səviyyədə daha çox açıq müzakirələrə imkan yaradır. Eləcə də psixoloji xəstəliklər, psixi pozğunluğun profilaktikası və müalicə xidmətlərinə sərmayə yatırılmasını stimullaşdırmaq üçün müəyyən tədbirlər görülür. 2024-cü il Ümumdünya Psixi Sağlamlıq Gününün mövzusu "Stress Səviyyələrini Azaltmaq üçün Məsləhətlər"dir.

Ümumdünya Psixi Sağlamlıq Günü ölkəmizdə də qeyd olunur. Müxtəlif tibb müəssisələrində dəyirmi masa iştirakçıları psixi sağlamlıq sahəsində gələcək inkişaf perspektivlərini və Azərbaycanda psixi xəstəliklərdən əziyyət çəkən şəxslərin hüquqlarının qorunması məsələlərini müzakirə edirlər.

# "akart" geniş fəaliyyətə başladı!




***Yeni nəsil maliyyə həlli ilə nağdsız hesablaşmalar hər an, hər yerdə və hamı üçün əlçatandır!***

Azercell-in törəmə şirkəti "A-Solutions Elektron Pul Təşkilatı" MMC "akart"ın fəaliyyət spektrini genişləndirir. Yeni nəsil maliyyə həlli nağdsız hesablaşmalara çıxışı olmayan əhali üçün də bu xidməti hər an və hər yerdə əlçatan edir. Azercell-in qabaqcıl müştəri təcrübəsi və innovativ yanaşmasını özündə birləşdirən "akart" 18 yaşı tamam olmuş hər bir vətəndaşa tamamilə ödənişsiz təqdim edilir.

**"akart"ın üstünlükləri:**

Maliyyə inklüzivliyi: hər kəs üçün əlverişli və geniş yayılmış maliyyə həlləri;

İnnovativ yanaşma: sadə və təhlükəsiz rəqəmsal maliyyə əməliyyatları;

Müştəriyönümlülük: sürətli, asan və intuitiv istifadə təcrübəsi;

Tərəfdaş şəbəkəsi: geniş partnyor ekosistemi ilə hər kəsə müxtəlif ödəniş və xidmət seçimləri təklif etməklə yanaşı, keşbek qazandırır;

Giqabayt bonuslar: hər ödənişdən aylıq giqabayt əldə etmək imkanı;

"Tamamla" kredit məhsulu: balansda kifayət qədər vəsait olmadığı halda belə ödənişi həyata keçirmək imkanı;

Təhlükəsizlik: maliyyə vəsaitləri təmassız ödənişlər (Apple Pay və Google Pay) və giriş şifrəsi, üz və barmaq izi tanıma kimi güclü təhlükəsizlik tədbirləri ilə qorunur.

Kartın aktivasiya prosesi çox rahatdır və cəmi bir neçə dəqiqə vaxt tələb edir. Həm IOS, həm də Android sistemlərini dəstəkləyən müştəri-yönümlü "akart" tətbiqini "AppStore" və ya "Google Play"dən yükləmək mümkündür. Daha sonra müvafiq xanalarda şəxsiyyət vəsiqəsinin seriya nömrəsini və FİN kodunu daxil edib, "Sima" ilə sürətli autentifikasiyadan keçmək kifayət edir. Kart yalnız Azercell abunəçiləri tərəfindən sifariş edilə bilər.

Qeyd edək ki, "A-Solutions Elektron Pul Təşkilatı" MMC ölkənin ilk elektron pul təşkilatıdır və 23 may 2024-cü ildən etibarən AR Mərkəzi Bankının 001 nömrəli lisenziyası əsasında fəaliyyət göstərir.

Yeni nəsil maliyyə həllinin məqsədi nağdsız əməliyyatları vərdiş halına gətirmək və maliyyə vəsaitlərinin təhlükəsizliyini təmin etməkdir.

"akart" ilə ödənişlərin rahatlığını kəşf et: innovativ, sürətli və təhlükəsiz!

Məhsul haqqında daha ətraflı məlumat əldə etmək üçün akart səhifəsinə keçid etməyiniz xahiş olunur.

## İdman

# Azərbaycanlı dünya çempionu: Qızıl medal üçün bütün gücümü ortaya qoymuşdum

"Fəxri kürsünün ən yüksək pilləsinə qalxmaq, üçün bütün gücümü ortaya qoymuşdum. Tabloda adımı ilk sırada görəndə çox təəccübləndim".



Bu sözləri AZƏRTAC-a açıqlamasında Perunun Lima şəhərində keçirilmiş gənclər arasında dünya çempionatında 50 metr məsafəyə atəşaçma üzrə yarışda qızıl medal qazanan Azərbaycan atıcısı İmran Qarayev deyib.

552 xalla Rumıniya təmsilçisini geridə qoyaraq dünya çempionu olan idmançı yarışa yaxşı hazırlaşdığını bildirib: "Bu uğur çəkilən əziyyətin bəhrəsidir. Çempionluğun necə bir hiss olduğunu sözlə ifadə etmək çox çətindir. Sadəcə, hədsiz dərəcədə sevincli olduğumu deyə bilərəm. Ümid edirəm ki, 2028-ci ildə Los-Ancelesdə keçiriləcək Yay Olimpiya Oyunlarına vəsiqə qazanıb, oradan da Vətənimə qızıl medalla qayıdaram".

Qeyd edək ki, Azərbaycan atıcıları mundialı 3 medalla başa vurublar. İ.Qarayevdən başqa, Sofiya Barxalova 50 metr məsafəyə atəş açmada 535 xalla bürünc mükafata yiyələnib.

Komandalar arasında keçirilən yarışda isə Zeynəb Sultanova, Leyli Əliyeva və S.Barxalovadan ibarət kollektiv 10 metr məsafəyə pnevmatik tapançadan atəşdə yalnız Hindistan yığmasından geri qalaraq gümüş medala layiq görülüb.

# Dünya çempionatında üç medal qazanan Azərbaycan atıcıları Vətənə dönüblər



Perunun Lima şəhərində keçirilən gənclər arasında dünya çempionatında uğurlu çıxış etmiş Azərbaycan atıcıları Vətənə qayıdıblar.

AZƏRTAC xəbər verir ki, yığma üzvlərini Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan Atıcılıq Federasiyasının nümayəndələri, media mənsubları, azarkeşlər və idmançıların yaxınları qarşılayıblar.

Xatırladaq ki, Azərbaycan atıcıları mundialı 3 medalla başa vurublar. 50 metr məsafəyə atəş açmada oğlanlar arasında İmran Qarayev 552 xalla Rumıniya təmsilçisini geridə qoyaraq dünya çempionu olub, qızlardan Sofiya Barxalova (535 xal) bürünc mükafata yiyələnib.

Komandalar arasında keçirilən yarışda isə Zeynəb Sultanova, Leyli Əliyeva və S.Barxalovadan ibarət kollektiv 10 metr məsafəyə pnevmatik tapançadan atəşdə yalnız Hindistan komandasından geri qalaraq gümüş medala layiq görülüb.

# Azercell COP29 ərəfəsində "Turist" tariflərini yeniləyir




***Ölkəmizə səfər edəcək xarici qonaqlar üçün telekommunikasiya xidmətləri Azercell ilə artıq daha rahat və əlçatandır***

Azercell şirkəti 8 oktyabr 2024-cü il tarixindən etibarən Fakturasız (SimSim) xətt sisteminə aid "Turist" tarif paketlərini yeniləyərək daha sərfəli və rahat istifadə imkanları təqdim edir.

| Tarif | İnternet | Azərbaycan + Beynəlxalq zənglər | İstifadə müddəti | Qiymət |
|---|---|---|---|---|
| Xoş gəldin | 30GB | 100 dəq. | 30 gün | 39 ₼ |
| Super | 60GB | 200 dəq. | 30 gün | 59 ₼ |
| Maks | 120GB | 300 dəq. | 30 gün | 79 ₼ |

Ölkə qonaqlarının mobil internetdən istifadəyə üstünlük verdiyini diqqət mərkəzində saxlayan Azercell "Turist" tariflərində bu xidmətdən istifadə imkanlarını genişləndirir. Yenilənmiş tariflər çərçivəsində sosial media üçün nəzərdə tutulan internet həcmi ümumi istifadə üçün ayrılan internet həcmi ilə birləşdirilir. Nəticədə "Xoş gəldin", "Super" və "Maks" tariflərində ümumi istifadə üçün nəzərdə tutulan internet həcmi 2 dəfə artırılır.

İndi "Xoş gəldin" tarifinin istifadəçiləri ay ərzində 30 GB internet, "Super" tarifinin istifadəçiləri 60 GB internet və "Maks" tarifinin istifadəçiləri 120 GB internet həcmindən yararlana bilərlər.

Eyni zamanda, "Turist" nömrələri və tarif paketlərinin istifadə müddəti 15 gündən 30 günə qədər uzadılır. Azərbaycan Respublikasında müvəqqəti yaşayış icazəsi olan əcnəbi vətəndaşlar 30 günlük müddət bitdikdən sonra müvafiq sənədlər təqdim edərək "Turist" və digər tariflərdən istifadəni davam etdirə biləcəklər.

Qeyd edək ki, "Turist" tarif paketlərinə qoşulmaq üçün əcnəbi vətəndaşlar xarici pasport ilə istənilən Azercell Eksklüziv ofislərinə və ya rəsmi dilerlərinə müraciət edə bilərlər.

Azercell-in rəsmi veb-səhifəsinə keçid edərək tariflər barədə daha ətraflı məlumatla tanış olmaq mümkündür.

Qeyd edək ki, bu yeniliklər Bakıda baş tutacaq BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası (COP29) və digər beynəlxalq tədbirlər ilə əlaqədar həyata keçirilir.

Təsisçi: Yeni Azərbaycan Partiyası
Baş redaktor: Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar: 598-37-76, 498-82-21, 498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4805
Sifariş: 2339
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi: Nardar BAYRAMLI